www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  12 oktyabr 2016-cı il  Çərşənbə  № 225  (6546)  Qiyməti  60 qəpik

**Xəbər**

## Bu gün Aşuradır

yazısı səh.7-də

**Gündəm**

### MSK referendumun yekun nəticələrini təsdiqlədi




3 seçki məntəqəsində nəticələr tam ləğv edilib; ölkə yeni konstitusiya ilə idarə olunmağa başlayır

yazısı səh.13-də

### 13-cü "zon"da nə baş verib?

yazısı səh.13-də

### Cahangir Hacıyevin maliyyə nazirini hədəfə almasının daha bir səbəbi-qısasçılıq...

yazısı səh.12-də

### Zakir Həsənovdan düşmənə xəbərdarlıq: "Bu dəfə zərbə daha sarsıdıcı olacaq"

yazısı səh.11-də

### Dünya Enerji Konqresindən gözləntilər - udan və uduzan kimlər olacaq?

yazısı səh.12-də

### Deputat Mirzəcan Xəlilova daha bir borc ittihamı

yazısı səh.10-da

### Prezident İlham Əliyevin sensasion bəyanatı ekspertin şərhində

yazısı səh.4-də

### Qərb müxalifətin demokratiya gözləntilərini dəfn etdi

yazısı səh.3-də

### Sabah Əli İnsanovun apelyasiya şikayətinə baxılacaq

yazısı səh.2-də

### Türkiyə-Rusiya anlaşması Azərbaycana nə vəd edir?

yazısı səh.4-də

### ABŞ-ın Azərbaycandakı səfirlərinin "alma-armud oyunları"

yazısı səh.13-də

## Nüfuzlu Amerika nəşrindən sensasion iddia

# PUTİNİN AZƏRBAYCAN HƏDƏFİ - QARABAĞ VƏ NEFT KƏMƏRLƏRİ...

"Newsweek" Kreml başçısının postsovet məkanında mümkün hərbi müdaxilə ssenarilərindən yazdı; Bakı və Qərbə xəbərdarlıq: "Moskva separatçı Cavax erməniləri vasitəsilə Bakı-Ceyhan və Bakı-Ərzurum kəmərlərinə təhlükə yarada bilər..."




yazısı səh.5-də

## Naxçıvanda həbsdə olan generalın Bakıya köçürülmək istəməsinin sirri

Vəli Ələsgərovun köçürülmək istədiyi təcridxanada MTN-in ən odioz generalları saxlanılır; sabiq nazirin həbsxanada incidilməsi iddiaları da var

yazısı səh.10-da




### 670 bal toplayan tələbə kəsirə görə intihar etdi

yazısı səh.14-də



*Aynur Camalqızı:*

### "Əgər İlham Əliyev Azərbaycanın prezidenti olmasaydı, biz Qarabağı çoxdan itirmişdik"

yazısı səh. 8 və 9-da



*Sərdar Cəlaloğlu:*

### "Əsgərin beynindəki o damarı kəsib şüşə qaba qoydum"

yazısı səh.6-da



## Kamal Kılıçdaroğlu həbs oluna bilər?

**Türkiyənin əsas müxalifət partiyasının lideri Kamal Kılıçdaroğlu həbs oluna bilər. "Habertürk" xəbər verir ki, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri barəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və oğlu Bilalın şikayəti əsasında "mətbuat vasitəsilə təhqir etmək" ittihamı ilə aparılan istintaq başa çatıb. ("Report")**

Türkiyə prezidenti ölkədə uğursuz dövlət çevrilişi cəhdindən sonra nümayiş etdirdiyi mövqeyinə görə K.Kılıçdaroğlu barəsində verdiyi şikayəti geri götürüb.

Ancaq B.Ərdoğanın şikayəti əsasında CHP sədri haqda 2 il 8 ay həbs cəzası tələbi ilə ittiham aktı hazırlanıb.

## Tarif Şurası qəbul imtahanı üçün ödənişin məbləğini müəyyən edəcək

**Tarif (qiymət) Şurası tərəfindən dövlət qulluğuna qəbulun test imtahanında iştirak üçün ödənişin məbləğini müəyyənləşdirməklə bağlı müvafiq işlər görülür. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev bildirib ki, artıq müvafiq məlumatların alınması üçün Tarif (qiymət) Şurası Dövlət İmtahan Mərkəzinə (DİM) müraciət edib.**

O qeyd edib ki, məlumatlar Tarif (qiymət) Şurasına daxil olduqdan sonra təhlillər və araşdırmalar aparılacaq: "Aparılan araşdırma və təhlillərin nəticəsi olaraq bu məsələ Tarif (qiymət) Şurasının gündəliyinə daxil ediləcək".

Qeyd edək ki, "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan prezidentinin 2016-cı il 11 aprel tarixli fərmanında dəyişikliklər edilməsi barədə fərmana əsasən, dövlət qulluğuna qəbulla bağlı test imtahanında iştirak üçün ödənişin məbləği Tarif (qiymət) Şurası tərəfindən müəyyənləşdiriləcək.

## Gürcüstanda 4 azərbaycanlı deputat mandat qazandı

**Gürcüstanda keçirilən parlament seçkilərində 4 nəfər azərbaycanlı deputat mandatı qazanıb. Hakim "Gürcü arzusu-demokratik Gürcüstan" partiyasından proporsional siyahı üzrə namizədliyi irəli sürülmüş Mahir Dərziyev, hakim partiyanın majoritar siyahıdan namizədləri Savalan Mirzəyev seçicilərin 50,02 faizinin, Ruslan Hacıyev isə 56,13 faizinin səslərini toplayaraq deputat mandatı qazanıblar.**

Ölkənin əsas ana müxalifəti sayılan "Vahid Milli Hərəkat" partiyasının üzvü Azər Süleymanov isə proporsional siyahı üzrə mandat əldə edib.

Gürcüstan Mərkəzi Seçki Komissiyasından bildiriblər ki, artıq bülletenlərin 99 faizindən çoxu sayılıb və ilkin hesablamalara görə, proporsional siyahı üzrə cəmi 3 partiya parlamentə keçə bilib. "Gürcü arzusu-demokratik Gürcüstan" partiyası 48,65 faiz, "Vahid Milli Hərəkat" Partiyası 27,11 faiz, "Gürcüstan Vətənpərvərlər Alyansı" isə 5 faiz səs toplayıb. Əsas müxalifət partiyalarından olan "İrakli Alasaniya-azad demokratlar" partiyası 4,62 faizlə mandat qazana bilməyib. Parlamentdə təmsil olunmaq üçün hər bir partiya 5 faizlik həddi keçməlidir.

Gürcüstan MSK-nın məlumatına görə, əksər majoritar dairələrdə namizədlər lazım olan səsi toplaya bilməyiblər. Ona görə də həmin dairələrdə ikinci tur keçiriləcək. İkinci turun noyabrın 2-də keçiriləcəyi gözlənilir.

Qeyd edək ki, azərbaycanlıların yığcam yaşadıqları Marneuli rayonu ərazisində təşkil olunmuş 36 saylı dairədə daha bir azərbaycanlı - Əhməd İmamquliyev qələbəyə daha yaxındır. Birinci turda o, seçicilərin 47,91 faizinin səsini qazanmaqla Tamaz Naverianini (43,41 faiz) üstələyib. Həmin dairədən daha az səs toplamış namizədlər ikinci tura buraxılmayacaqlar. Gürcüstan Seçki Məcəlləsinin tələbinə görə, ikinci tura birinci turda ən çox səs toplamış iki namizəd buraxılır.

Beləliklə Ə.İmamquliyev ikinci turda qələbə qazansa, Gürcüstan parlamentində təmsil olunacaq azərbaycanlı deputatların sayı müstəqillik dövründə ilk dəfə 5 nəfər olacaq.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# Sabah Əli İnsanovun apelyasiya şikayətinə baxılacaq

**Bakı Apelyasiya Məhkəməsində həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun apelyasiya şikayətinə baxılacaq.**



Şikayət üzrə ilkin baxış iclası oktyabrın 13-də keçiriləcək.

Qeyd edək ki, bir müddət əvvəl 1 saylı İnzibati-İqtisadi Məhkəməsində Əli İnsanovun Nəsimi Rayon İcra Şöbəsinə qarşı iddiası üzrə məhkəmə prosesi başa çatıb. Məhkəmə iddianı təmin etməyib. Şikayət həmin qərardan verilib.

Ə. İnsanovun iddiasına əsasən, ona məxsus qaraj özünün və ailəsinin xəbəri olmadan 50 min manata Vəfa Əlizadə adlı şəxsə satılıb. Bundan sonra sabiq nazir məhkəməyə müraciət edib. Nəsimi Rayon Məhkəməsi V. Əlizadənin keçmiş nazirə 50 min manat ödəməsi barədə qətnamə çıxarıb. Lakin məhkəmə qətnaməsi icra olunmayıb. Əli İnsanovun vəkilləri müəyyənləşdirib ki, V. Əlizadənin adına bankların birində səhmlər var. Bu dəfə vəkillər səhmlərin bir hissəsinin (50 min manatlıq) üzərinə həbs qoyulması tələbi ilə məhkəməyə müraciət edib. Məhkəmə təqdimatı təmin edərək, qərardad çıxarıb. Həmin qərardadı Nəsimi Rayon İcra Şöbəsi icra etməyib. Bununla bağlı Ə. İnsanov 1 saylı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edib.

Ə. İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunub.

Bu il avqust ayının 24-də isə Ə. İnsanova yeni cinayət işi açılıb. Sabiq nazir CM-in 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2-ci (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri ilə ittiham olunur.

## Olland azərbaycanlı deputatın sualını cavablandırıb

**Fransa prezidenti Fransua Olland Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Strasburqda keçirilən payız sessiyasının dünənki plenar iclasında çıxış edəndən sonra assambleya üzvlərinin suallarını cavablandırıb.**

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyevanın Avropada multikulturalizm ideyasının tənəzzülə uğradığı, bunun nəticəsində terrorizmin baş qaldırmasını əsas gətirərək, Avropada multikulturalizm ideyasının yenidən canladırılması üçün nələr edilə biləcəyinə dair sualına cavab verən F. Olland Fransanın dünyəvilik modelini misal çəkərək bütün dini təriqətlərin sülh içində birgə yaşamasının mümkün olduğunu bildirib. (APA).

"Siz bir cəmiyyətdə müxtəlif olan dini təriqətlərin sülh içində yaşaya bilməsini soruşdunuz. Fransada bizim dünyəvilik prinsipimiz var və bu dünyəvilik hamının sülh içində yaşaya bilməsinə, dini azadlıqların təmin edilməsinə və bütün təriqətlərin özlərini ifadə etməsinə imkan yaradır. Əlbəttə, hər bir vətəndaşımız öz dini azadlığından tam şəkildə istifadə edə bilməlidir. Ancaq təbii ki, bu, ümumi yaşam tərzimizə, ictimai həyatımıza heç cür təsir göstərməməlidir. Yəni, dini adət və qaydalara nisbətən başda qanun durmalıdır. Bir sözlə, biz bir yerdə yaşaya bilərik və bizim öz qaydalarımızdan çəkilmək fikrimiz yoxdur. Əsasən də Fransa üçün bu dünyəvilik qaydası çox mühüm məsələdir".

## Türkiyənin Bakıdakı yeni səfiri səlahiyyətlərinin icrasına başladı

**Türkiyənin Azərbaycandakı yeni səfiri Erkan Özoral səlahiyyətlərinin icrasına başlayıb. Bu barədə «Trend»ə Türkiyə səfirliyindən məlumat verilib. Qeyd edək ki, E.Özoral bundan əvvəl Türkiyə XİN-də baş direktorun müavini vəzifəsində çalışıb.**



## İntensiv yağış yağacaq, dolu düşəcək

**Oktyabrın 12-də Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti xəbər verir ki, oktyabrın 12-də mülayim şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 14-17, gündüz 18-22 dərəcə isti olacağı gözlənilir. Bakıda gecə 15-17, gündüz 18-20 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 762 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 85-95 % təşkil edəcək.

Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Şərq küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 18-23 dərəcə isti, dağlarda gecə 4-9, gündüz 11-16 dərəcə isti olacağı gözlənilir.

Xəbərdarlığa görə, oktyabrın 12-13-də ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, çaylarda sululuğun artacağı, dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var.

Tibbi-meteoroloji proqnoza görə, oktyabrın 12-13-də Abşeron yarımadasında meteoroloji amillər zəif və mülayim təəddüdlü əsasən əlverişli olsa da, havada rütubətin normadan çox olması bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.



## Ramil Usubov Gəncəyə gedir

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2016-cı il oktyabr ayının 29-da saat 10:00-da Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərini Gəncə Şəhər Baş Polis İdarəsində qəbul edəcək.**

DİN-dən musavat.com-a verilən məlumata görə, vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

## Səfər Əbiyev ehtiyatda və istefada olan zabitlərdən qaçır

**"Müdafiə Nazirliyinin tövsiyəsi ilə ehtiyatda olan zabitlərlə görüşürük". Bunu modern.az-a açıqlamasında ehtiyatda olan general-leytenant, Azərbaycanın Çindəki keçmiş hərbi attaşesi Yaşar Aydəmirov deyib.**

General-leytenant bildirib ki, görüşlər zamanı əsasən cəbhədəki vəziyyət müzakirə olunur və orduya hər cür dəstək ifadə edilir:

"Generallarla, zabitlərlə müzakirələr aparırıq. Lazımdırsa əlimizdən gələn köməyi etməyə hazırıq".

Yaşar Aydəmirov keçmiş müdafiə naziri, istefada olan general-polkovnik Səfər Əbiyevin generalların tədbirlərinə qatılıb-qatılmaması haqda da danışıb:

"Səfər Əbiyevi belə tədbirlərdə görməmişəm. O bizim qatıldığımız tədbirlərə gəlmir.

Mən özüm istefada yox, Ehtiyatda olan generalam. Səfər Əbiyevlə hər hansı əlaqəm yoxdur. Onu heç görmürəm".

## Sirkə turşusu içən 84 yaşlı qadın öldü

**Bakıda ahıl qadın zəhərlənərək ölüb. Xətai Rayon Polis İdarəsindən verilən məlumata görə, hadisə oktyabrın 11-də günorta saatlarında qeydə alınıb. Rayon sakini 84 yaşlı Süsən Ağaqulu qızı Kazımova sirkə turşusu içib. O, təcili xəstəxanaya çatdırılıb. Həkimlərin səyinə baxmayaraq, həyatını xilas etmək mümkün olmayıb.**

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

**Milli Məclisin deputatı, YAP-ın Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızının parlamentin son iclasında internet televiziyalarının fəaliyyəti ilə bağlı dedikləri ciddi qalmaqal yaradıb. Məsələ getdikcə böyüyür. YAP-çı deputat internet televiziyalarının fəaliyyəti barədə qanun qəbul olunmasını və onların fəaliyyətinin bu qanunla tənzimlənməsini təklif edib.**




# YAP-çı deputatın dedikləri qalmaqal yaratdı

## Bəxtiyar Sadıqov: "Mətbuat azadlığı həddindən artıq olanda ciddi problemlər yaradır"

M.İbrahimqızı bildirib ki, internet televiziyaları ölkəmizin imicinə zərbə vuran yalan məlumatlar yayırlar, ölkə başçısı barədə şər-böhtan xarakterli yazılar dərc edirlər. Onun fikirləri müxalifətə yaxın mətbuat orqanları və sosial şəbəkələrdə sərt şəkildə tənqid olunur. İddia olunur ki, xanım deputatın fikirləri birbaşa müxalifətin bu sahələrdə olan imkanlarını tamamilə sıfıra endirməkdən irəli gəlir. M.İbrahimqızı aşağılayıcı tonda tənqid olunur, bəzən təhqirə belə keçilir.

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov həmkarının dediklərinə belə münasibət sərgilədi:** "Hər bir millət vəkilinin Milli Məclisdə hadisələrə münasibət bildirmək, sərbəst fikir səsləndirmək ixtiyarı var. Mən buna hörmətlə yanaşıram. Azərbaycanda mətbuat və söz azadlığı mövcuddur. Kimin buna şübhəsi varsa, interneti açıb baxa bilər, "Yeni Müsavat"da gedən yazıları izləyə bilər. Yəni kim necə istəyirsə, fikirlərini o şəkildə ifadə edir. Bu mənada tam azadlıqdır. Amma nəzərə alaq ki, mətbuat azadlığı həddindən artıq olanda ciddi problemlər yaradır. Təsadüfi deyil ki, bəzi ölkələr mətbuat azadlığını məhdudlaşdırmaq yolunu tuturlar. Böyük Britaniya yaxınlarda mətbuat azadlığı, kral ailəsi və dövlətlə bağlı məlumatlara müəyyən məhdudiyyətlər yaratdı, onu ciddiləşdirdi. Azərbaycanda «KİV haqqında» Qanun var. O qanun beynəlxalq ekspertizadan keçib. Həmin qanunla bağlı Mətbuat Şurası geniş işlər görür. İnsanlar müxtəlif olduğu kimi, jurnalistlər də müxtəlifdir. İnsanlar ədalətli və ədalətsiz, səviyyəli və səviyyəsiz olduğu kimi, çap və elektron media da belədir. Elə insan var ki, bir məlumat eşidən kimi, onu dəqiqləşdirmədən yaymağa başlayır. Bəzi mətbuat orqanları da bu insanlar kimidir. Fakta məsuliyyətsiz yanaşma, mənbəyi araşdırmama, yaxud başqa mənbədən götürüb onu dəqiqləşdirmədən yayma var. Belə hallar haqlı olaraq insanları incidir, onların hüquqlarına toxunur. Son referendumdan öncəki referendumda şəxsi həyatın mühafizəsi ilə bağlı konstitusiyamıza dəyişikliklər etdik. Son referendumda isə insan həyatının qorunmasının vacibliyi ilə bağlı daha bir dəyişiklik etdik. Bunlar insan həyatı və şəxsiyyəti ilə bağlı vacib olan məsələlərdir. Cəmiyyətin, insanların rəyini nəzərə alaraq, konstitusiyamızda müəyyən dəyişikliklər etmişik. İndi desək ki, qanunvericiliyimiz mətbuat və söz azadlığına uyğun deyil, mətbuat sahəsində sona qədər münasibətləri tənzimləyə bilmir, bu ədalətsizlik olardı. Qanunlarımız mükəmməldir, Azərbaycan jurnalistinin peşə qaydaları, davranışları var. Oturuşmuş qəzetlər, jurnalistlərlə bağlı heç bir problem yoxdur. Son vaxtlar internet televiziyaları dəbə minib. Bu televiziyalar da mənfi ənənə formalaşdırırlar. Yeni qəzetlər, saytlar, internet televiziyaları çalışırlar ki, nəsə bir sensasiyalı məlumatlar yayalar və bununla varlıqlarını göstərələr. Əksər hallarda da bu sensasiya əsassız olur".



**B.Sadıqov həmkarını dəstəklədiyini də qeyd etdi:** "Məlahət İbrahimqızının mövqeyi doğrudur və onu dəstəkləyirəm. İnternet televiziyaları var ki, iş-peşələri ancaq mənfilikləri görmək, bunu qabartmaq, sensasiya yaratmaq üçün həqiqətləri təhrif etməkdir. Bunun da nəticəsində cəmiyyətə düzgün məlumat vermirlər. İnsanların şərəf və ləyaqətlərinə uyğun gəlməyən addımlar atırlar. Düşünmürəm ki, bu barədə xüsusi bir qanun qəbul etmək lazımdır. Çünki mövcud qanunlarımız kifayət qədər uyğundur. Qanunlarımız imkan verir ki, həmin televiziyaları, elektron və çap medialarını məhkəməyə verək, qanunun aliliyi ilə onlardan məsuliyyət tələb edək. Bu baxımdan, həm məsələnin aktuallığını, həm də bu sahəyə xüsusi diqqətin ayrılmasını qəbul edirəm. Amma bu barədə qanun qəbul edilməsinə düşünürəm ki, hələ ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI**



# "Rabitə işi"nə görə tutulan məmur yeriyə bilmir

## Vidadi Zeynalovun vəkili Ədliyyə Nazirliyinə müraciət ünvanladı

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin keçmiş Aparat rəhbəri Vidadi Zeynalovun sağlıq durumundan ciddi problemlər var. Bu haqda "Yeni Müsavat"a onun vəkili Ceyhun Yusifov məlumat verib. Onun sözlərinə görə, hüquqlarını müdafiə etdiyi şəxsə qarşı qərəzli münasibət sərgilənir:**

"Vidadi Zeynalov səhhətindəki problemlə əlaqədar olaraq, görüş otağına gələrkən çox əziyyət çəkir. O, həbs edilməmişdən əvvəl diz qapağından əməliyyat olunub. Onun belində ağır dərəcəli onurğa yırtığı (qrija) və sinir ağrıları var. Buna görə də Vidadi Zeynalov otura bilmir. O, yerimə qabiliyyətini itirmək həddindədir. Ya yataqda uzanmalı, ya da ayaq üstə dayanmalıdır. Bizim şikayətlərimizdən sonra onu 3-ci mərtəbədən 1-ci mərtəbəyə köçürdülər. Amma onu şəraitsiz otağa köçürüblər. Ona qarşı məhdudiyyətlər 5 qat artırılıb. Vidadi Zeynalov mənə şiddətli ağrılarının olduğunu, buna görə gecələr yata bilmədiyini deyir. Onu formal olaraq şəraitsiz, nəmişlik otağa keçiriblər. Həmin otaqdakı şərait onun xəstəliyinə daha da pis təsir edir".

**Vəkil Ədliyyə Nazirliyi rəhbərliyinə müraciət edərək Vidadi Zeynalovla bağlı məsələyə diqqət ayrılmasını istəyib:** "Vidadi Zeynalovun telefon danışıqlarına qadağa tətbiq edilib, yaxınları ilə görüşmək hüququ məhdudlaşdırılıb. Vidadi Zeynalova qarşı açıq şəkildə aqressiv münasibət sərgilənir. Ona xüsusi dietik qidaların verilməsinin də qarşısı alınır. Bu təzyiqlərə son qoyulmasını xahiş edirik". Qeyd edək ki, 2015-ci ilin noyabr ayının 13-də Baş Prokurorluğun Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki həbslərlə bağlı yaydığı rəsmi məlumata görə, nazirliyin aparat rəhbəri Vidadi Zeynalov 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməkdə ittiham edilib. Cinayət Məcəlləsinin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə) maddəsi ilə ittiham olunan V.Zeynalov barəsində Binəqədi Rayon Məhkəməsində həbs-qətimkan tədbiri seçilib. Bu müddət sonradan bir neçə dəfə artırılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Qərb müxalifətin demokratiya gözləntilərini dəfn etdi

## Demokratik düşərgəyə verilən dəstək sıfıra enib; Qərb hakimiyyətlə əlaqələrə daha çox meyl edir

**Qərbin Azərbaycan müxalifətinə verdiyi dəstək sıfıra enib. Son illərdə beynəlxalq qurumlar, Avropa ölkələri daha çox Azərbaycan hakimiyyəti ilə əməkdaşlıqda maraqlı görünürlər. Bu proseslər 2005-ci ilin parlament seçkilərindən sonra başlayıb.**

Sentyabrın 26-da ölkəmizdə keçirilən referendum bunu bir daha sübut etdi. Öndə olan əksər Qərb institutları konstitusiyaya edilən əlavə və dəyişiklikləri birmənalı şəkildə dəstəklədilər, səsvermənin nəticələrini tanıdılar. İndiyə qədər belə bir hal müşahidə olunmamışdı. Azərbaycanda keçirilən istənilən seçkidən sonra beynəlxalq təşkilatlar arasında ikitirəlik yaranırdı. Bir qisim nəticələri tanıyır, digər tərəf sərt bəyanatlar səsləndirirdi. Amma Venesiya Komissiyasının rəyi istisna olmaqla, Qərb institutları Azərbaycan hökumətinin yanında oldular. Bütün bunlar bəzi iddiaların meydana çıxmasına səbəb oldu. İddialardan biri ondan ibarətdir ki, Azərbaycan hökuməti Qərblə anlaşdığı üçün beynəlxalq təşkilatlar referendumda hakimiyyətin yanında oldular. Digər bir iddia da ondan ibarətdir ki, Qərb Azərbaycan müxalifəti zəif olduğuna, passiv fəaliyyət göstərdiyinə görə demokratiyanın yanında olmur.

**Politoloq Qabil Hüseynli hesab edir ki, belə məsələlərdə müxalifətin fəaliyyətindən çox şey asılıdır:** "Milli güc istənilən səviyyəyə qalxırsa, o zaman dəstək olur, əlaqələrə əhəmiyyət verilir. Əgər bu gün iki partiya bir-birini qəbul etmirsə, aralarında ümummilli məsələlərdə ortaq əlaqələr mövcud deyilsə, müxalifət dağınıq şəkildə, zəifləmiş formada fəaliyyət göstərirsə, ciddi dövlətlər, siyasi qüvvələr onlarla əməkdaşlığa üstünlük verə bilməzlər. Qərbin özünün ciddi siyasi maraqları var. Bu maraqlar Cənubi Qafqaz bölgəsini əhatə edir. Bu maraqların təmin edilməsi üçün Qərbin Azərbaycanda hakimiyyətlə əlaqələrə önəm verməsinə təəccüblənmək lazım deyil. Çünki Qərb görür ki, ölkədə siyasi sabitlik mövcuddur, iqtisadiyyatda müəyyən qüsurlar olsa da, inkişaf artan xətlə gedir. Ölkə başçısı İlham Əliyev balanslaşdırılmış siyasət yeritməklə, dünya gücləri ilə ümumi dil tapa bildi. Onlar da İlham Əliyevin simasında güclü siyasətçi görüb, onunla əməkdaşlığa qərar verdilər. Bu əməkdaşlıq da son illərdə artıb. AŞ PA-nın son sessiyasında postsovet ölkələrindəki münaqişələr, o cümlədən Dağlıq Qarabağ probleminin ölkənin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı verdiyi bəyanat bunları təsdiq edir. Qərb Azərbaycanın siyasi rəhbərliyini ciddi şəkildə dəstəkləməyə başlayıb, münasibətlərin sürətlə inkişafını istəyir. Amerikanın özündə Azərbaycana qarşı münasibət xeyli müsbətə doğru dəyişib. Rusiyanın aqressivliyinin artdığı bir zamanda bu, Qərbin maraqlarına tam cavab verən bir siyasətdir. Hazırda demokratik seçkidən, insan haqlarından daha çox Qərbi bölgənin təhlükəsizliyi, sabitlik, ölkələrin ərazi bütövlüyünün qorunub saxlanılması maraqlandırır. Bu istiqamətdə də həmin dövlətlərə öz dəstəyini verir. Azərbaycana verilən dəstək siyasi hakimiyyətə olan etimaddan doğur. Bu dəstək Rusiyanın regionda qarma-qarışıqlıq yaratmaq istədiyi bir zamanda çox ciddi əhəmiyyəti olan hadisədir. Qərb yaxşı başa düşür ki, bu dəstəyi vermək Rusiyanın qurduğu planı pozmaq deməkdir. Düşünürəm ki, Qərb tutduğu bu siyasi xətti uzun müddət davam etdirəcək. Bu baxımdan, müxtəlif hisslərə qapılmağa ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI**



**Qabil Hüseynli:** "Ciddi dövlətlər onlarla əməkdaşlığa üstünlük verə bilməzlər"

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

**Prezident İlham Əliyevin ötən həftə Nazirlər Kabinetinin iclasında çıxışı zamanı işlətdiyi fikirlərdən biri də bu olub ki, hazırkı hakimiyyətin siyasətinə alternativ siyasət xaosdur, qarşıdurmadır. Prezident konkret hansısa müxalif qüvvənin adını çəkməyib.**

# Prezidentin sensasion bəyanatı ekspertin şərhində

## Zahid Oruc: "Müxalif qüvvələrin hakimiyyəti Qarabağın beynəlxalq aləmdə tanıdılması demək olacaq"




**Deputat Zahid Oruc** hesab edir ki, ölkə prezidentinin həmin bir cümləsi hər hansı konkret qüvvəyə, konkret hərəkata, şəxsə, subyektə yönəlmədən metafora kimi işlənib, real mahiyyət daşıyır: "Gerçəkdən də bu gün İlham Əliyev siyasətinin alternativi qarşıdurma, xaosdur. Təkcə müxalifət qüvvələri üçün yox, hakimiyyət cinahından da bütün qüvvələrin, komandanın maraq və mənafelərini uzlaşdıran ən güclü lider məhz İlham Əliyevdir. Əslində on illər ərzində Heydər Əliyev siyasətinin hakimiyyətdə olmağının səbəbi bir tərəfdən millətin maraqlarının dövlət idarəçiliyində təmsil olunmasıdırsa, o biri yandan əks qüvvələrin inkarçı mövqeyidir. Baxın, Türkiyədə 1923-cü ildən bu yana hakimiyyətə gələn qüvvələr, hətta çevriliş vasitəsilə mövcud iqtidarları devirənlər də Atatürk irsinə istinad eləyib, onun Türkiyə üçün həyata keçirdiyi böyük tarixi işlərin inkarında durmayıblar. Əksinə, həmin o cümhuriyyətçilik idealları Osmanlı İmperiyasının qalıqları üzərindən bir ölkənin viranəyə çevrilməməsi və xilaskarlıq missiyası, sonradan bütün sahələrdə həyata keçirilən böyük tədbirləri müsbət hadisə kimi dəyərləndirib. Azərbaycanda ötən on illər ərzində biz Heydər Əliyev irsi, siyasəti deyəndə onun daxildə bütün etnik milli zümrələrin vahid bir vətəndaş marağında "bu dövlət hamınındır" prinsipi ilə birləşdirilməsini nəzərdə tutmuşuq. İndi də davam edən bu siyasət Ermənistandan savayı Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərən ölkələrlə mühüm əlaqələri özündə ehtiva edib. Neft amilini Azərbaycanın güc faktoruna çevirmək və bununla beynəlxalq əlaqələrimizi güclü bir şəkildə təmin etməyi özündə ehtiva edib. Bütün bunlar inkar edilincə, gerçəkdən də çox ağır bir mənzərə yaranır".

**Z.Oruca görə, bu gün həqiqətən də İlham Əliyev hakimiyyətinin alternativi xaosdur:** "Ona görə ki, müxalif qüvvələrin baxışlar sistemi Azərbaycana güclü bir dövlət qurmağı və işıqlı gələcəyi vəd eləmir. Reallıq bundan ibarətdir ki, ötən illər ərzində güclü müxalif sistemlərin formalaşa bilməməsi, onlarda yeniləşmənin getməməsi, siyasi vitrinin dəyişməməsi, ən güclü xarici universitetlərdə və daxildə təhsil alanların gəlib müxalif sistemlərdə özlərinə gələcək qurmaq istəməməsi onları ölkənin həlledici mənada gələcəyindən, həyatından sıxışdırıb kənarda qoyub. Ona görə də biz İlham Əliyevin liderliyinə, onun birləşdirici gücünə, regional ağır savaşlardan çıxmaq bacarığına, Azərbaycan maraqlarını güzəştsiz müdafiə etməsinə və Qarabağ məsələsində hamıdan daha kəskin siyasəti yürütməsinə yegana kurs kimi yanaşırıq. Müxalif qüvvələrin hakimiyyəti Qarabağın müstəqilləşməsi, beynəlxalq aləmdə tanıdılması demək olacaq. Ona görə ki, bu cür avantüra ilə, sadəcə, guya ermənilərin üzərinə getmək ideyası ilə və iqtidarı yenidən bu vasitə ilə zəbt eləməklə Azərbaycana uğurlu bir sabah vəd eləmək mümkün deyil. Bu gün gerçəkdən də ermənisiz Azərbaycan modeli ilə düşmən qarşısına çıxmaq mümkün deyil. Çox sadə bir sual olunur ki, bu dövlətin gələcəyi üçün ən bədbin proqnoz verən qüvvələr fərqindədirlərmi bu gün Azərbaycanın valyuta ehtiyatından çıxış eləsək, qarşıdakı illərdə ölkəyə hər hansı bir ixracdan bir dollar belə daxil olmasa belə, Azərbaycanı indiki vəziyyətdə ən azı üç il saxlamaq mümkündür? Hakimiyyət bu qədər valyuta rezervlərini və ölkənin perspektivini formalaşdırırkən iqtidarı niyə başqa qüvvəyə verməlidir?! Vaxtilə büdcəsiz yaşanan Azərbaycan reallığı və faciələrini təkrar bu ölkəyə yaşatmaq üçün məlum müxalif qüvvələrəmi iqtidarı verməlidir?! Bütün faktorları nəzərə alanda ölkənin gələcəyi həmin qüvvələrin timsalında son dərəcə faciəli görünür. Dağlıq Qarabağın tanıdılmasından tutmuş, Azərbaycan dövlətçiliyinin sarsıdılmasına qədər acı perspektiv bu qüvvələrin iqtidara gəlişi nəticəsində meydana çıxa bilər".

**Deputata görə, hər hansı siyasi qüvvə gələcəkdə Heydər Əliyev siyasətinə istinad eləməsə, ona söykənməsə, Azərbaycan maraqları təhdid olunacaq:** "Türkiyədə CHP də, MHP də, AKP də, digər qüvvələr də Atatürkün varlığını, Türkiyə həyatı üçün işlərini inkar etmir. Çünki inkar edəndə quru səhra yaranır. Çünki Türkiyəni bir dövlət kimi var edən Atatürk olub".

❑ **Etibar SEYİDAĞA**

# Türkiyə-Rusiya anlaşması Azərbaycana nə vəd edir?

## Ankara və Moskva arasında imzalanan "Türk axını" layihəsi ilə bağlı ekspertlərin fikirləri haçalanır; TANAP-a təhlükə varmı?

**Prezident Vladimir Putinin Türkiyə səfəri və həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşü dünyanın əsas müzakirə mövzularındandır. Səfər çərçivəsində xeyli müddətdir imzalanması gözlənilən "Türk axını" üzrə sazişlə bağlı suallara da son qoyuldu və Rusiya ilə Türkiyə üçün mühüm əhəmiyyət kəsb edən sənəd imzalandı.**



Bu razılaşmanın Azərbaycan üçün nə vəd etdiyi barədə fərqli yanaşmalar var. **Sabiq maliyyə naziri Fikrət Yusifov** "Yeni Müsavat"a dedi ki, bu layihənin yenidən gündəmə gəlməsi çoxsaylı suallar yaradıb: "Daha çox suallar bu layihənin reallaşdırılması ilə Cənub Qaz Dəhlizi (CQD) layihəsi üçün hər hansı bir problemin yarana bilməsi ilə bağlıdır. Əslində Rusiya bu layihənin reallaşdırılması zamanı CQD-nin davamı olan TANAP xəttinin imkanlarından istifadə etməyi nəzərdə tutur. "Cənub axını" layihəsini reallaşdırmaqda Rusiyanın qarşıya qoyduğu başlıca məsələ 2019-cu ilə qədər Türkiyəyə satılan qazın Ukrayna üzərindən keçməsini dayandırmaqdır. Digər tərəfdən, Türkiyə, Azərbaycan və Rusiya artıq enerji təchizatı məsələlərinin həllində maraqları birləşdirərək regionda enerji təchizatı məsələlərində yeni bir gücün yarandığını nümayiş etdirmək istəyirlər".

**"TAP və TANAP layihəsi davam edəcək. TANAP və "Türk axını" layihələri rəqib layihələrdir. Hər iki layihə eyni hədəflə, eyni bazara çıxmağı planlayır. Sadəcə olaraq, hər iki layihə arasında rəqabət var. Ancaq bütövlükdə Azərbaycanın layihəsinin dayanması və layihənin aktuallığını itirməsinə əsaslar yoxdur". Bu fikirlər isə iqtisadçı alim Qubad İbadoğluna məxsusdur. O qeyd edib ki, TANAP layihəsi Rusiyanın maraqlarına uyğun deyil:** "Rusiya bu layihənin baş tutmamasında lazımi səviyyədə fəaliyyət göstərəcək. Çünki TANAP Rusiyanın qaz bazarına alternativdir. İndiki halda bu layihənin dayandırılması üçün Rusiya istənilən addımı atacaq. Çünki proseslər müəyyən qədər davam edib və şimal qonşumuz indiki mərhələdə bu layihə üçün ciddi əngəl yaratmaq gücündə deyil". Türkmənistan qazının TANAP-a qoşula biləcəyi məsələsinə gəldikdə, iqtisadçı ekspert ölkə az.a deyib ki, bu barədə danışmaq tezdir: "Türkmənistan qazının Cənub Qaz Dəhlizi ilə göndərilməsi bütövlükdə bu layihənin əhəmiyyətini artıra bilər".

**""Türk axını" layihəsinin reallaşması Azərbaycan üçün narahat doğuracaq məsələ deyil". Bunu isə enerji məsələləri üzrə ekspert İlham Şaban deyib. Onun sözlərinə görə, o səbəbə ki, hələ real olaraq birinci boru kəmərinin detalları məlumdur: "O da Türkiyə bazarına gələcək"(gunun-sesi.info). Ekspert əlavə edib ki, bu kəmər onsuz da Balkanlar üzərindən hazırda Türkiyəyə gələn kəməri əvəz edəcək:** "Yəni Türkiyənin qazancı tranzitsiz Rusiya qazına sahib çıxmaq olacaq. Nəticə etibarı ilə baha aldığı Rusiya qazının qiymətlərində müəyyən endirimlər olacaq. Bu da təbiidir, çünki Rusiya qazı artıq 4 ölkədən keçməyəcək və ucuz da olmalıdır. Yəni həcmlər faktiki dəyişməyəcək. Qaldı ikinci boru kəmərinə - hansı ki, Yunanıstana doğru istiqamət götürməlidir, bu məsələ hələ açıqdır. Onun tikintisinin baş tutması Rusiyanın Avropa Komissiyası ilə razılaşmasından sonra mümkündür".

"Vladimir Putinin İstanbula səfərində iki məqsədi var idi: Enerji Konqresində iştirak və çıxışla enerji mövzusunda beynəlxalq aləmə mesajlar göndərmək, İstanbulda Ərdoğanla mühüm sazişlərə imza atmaq. Rusiya prezidenti hər iki məqsədinə nail oldu". Bunu isə "Yeni Müsavat"a açıqlamasında **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** dedi.

**Ekspert Putinin son iki ildə Qərb ölkələrinə səfərlər edə bilmədiyini xatırlatdı:** "Türkiyə-Rusiya münasibətlərinə gəlincə, iki dövlət arasında yeganə fikir ayrılığı yaradan mövzu Suriyadır. Artıq buna da çarə tapıblar: Türkiyə Əsədə qarşı ritorikasını yumşaldıb, Suriyadakı hədəfi ancaq terrorçulardır, Rusiya isə silahlı kürdlərə dəstək verməyəcək. Suriya ilə bağlı işə yaramayan Rusiya-ABŞ anlaşmasından fərqli olaraq Ankara ilə Moskva öz aralarındakı anlaşmalara riayət edəcək. Çünki hər ikisinin bir-birinə ehtiyacı var".

**Ekspertin sözlərinə görə, Putinin İstanbula səfərinin ikinci hissəsi Ərdoğanla ikitərəfli görüşə həsr edildi. Demək olar ki, iki ölkə arasındakı münasibətlər təyyarə vurulmamışdan öncəki strateji tərəfdaşlıq illərinə qayıtdı:** "1. İstanbulda "Türk axını" sazişinə imza atıldı. 2.Rusiya Türkiyədə Akkuyu nüvə elektrik mərkəzini inşa edəcək. 3. Rusiya öz bazarını yenidən Türkiyənin kənd təsərrüfatı malları üçün açdı. 4.Hər iki ölkədə turizm sərgiləri keçiriləcək. 5.İki ölkənin ordu komandanlıqları və kəşfiyyat xidməti rəhbərləri əlaqəli şəkildə fəaliyyət göstərəcək. 6.İki ölkə Suriya probleminin sülh yolu ilə həlli ətrafında dialoqu davam etdirəcək".

**E.Şahinoğlu əlavə etdi ki, İstanbul Konqresində Azərbaycan prezidenti İlham Əliyevin də iştirakı əhəmiyyətli hadisədir:** "Konqresdə 3 ölkənin prezidentlərinin yanaşı əyləşərək bir-biriləri ilə söhbət etmələri diqqətçəkici idi. Bu görüntü ondan xəbər verir ki, Rusiya, Türkiyə və Azərbaycan arasındakı əməkdaşlığın genişlənməsi həm bu ölkələrin, həm də bölgənin xeyrinədir. Sadəcə, Ermənistanın Azərbaycana qarşı işğalını davam etdirməsi və Rusiyanın Ermənistan hakimiyyətinə təsir edib ilkin olaraq Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını sürətləndirməməsi bölgədə sülh və əmin-amanlıq üçün başlıca maneədir. İlham Əliyev və ya Rəcəb Tayyub Ərdoğan İstanbulda rusiyalı həmkarıyla Dağlıq Qarabağ münaqişəsinin həlli vacibliyi haqqında fikir mübadiləsi aparmadılar. Çünki Enerji Konqresində prezidentlərin çıxışları və aralarındakı qısa fikir mübadilələri yalnız mövzuya aid idi. Buna baxmayaraq, Kremlə aydın olmalıdır ki, Rusiya-Türkiyə-Azərbaycan üçlüyünün siyasi, iqtisadi və hərbi zəmində yaxın inteqrasiyası Qarabağ münaqişəsinin həllindən keçir".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

# Nüfuzlu Amerika nəşrindən sensasion iddia




# Putinin Azərbaycan hədəfi - Qarabağ və neft kəmərləri...

## "Newsweek" Kreml başçısının postsovet məkanında mümkün hərbi müdaxilə ssenarilərindən yazdı; Bakı və Qərbə xəbərdarlıq: "Moskva separatçı Cavax erməniləri vasitəsilə Bakı-Ceyhan və Bakı-Ərzurum kəmərlərinə təhlükə yarada bilər..."

**Suriya böhranına görə Rusiya ilə ABŞ arasında artan gərginlik dünyanın başqa münaqişəli bölgələrinə də öz təsirini göstərməkdədir. Söhbət öncəliklə, Qarabağ ixtilafı da daxil, postsovet məkanında hələ də həllini tapmayan, müstəsna olaraq, Rusiyanın nəzarətində olan etnik-ərazi konfliktlərindən gedir. Dağlıq Qarabağ problemi ətrafında mövcud durum göstərir ki, Moskva onları tezliklə nizamlamağa həvəsli deyil.**

O da faktdır ki, Rusiyanın Ukraynanın şərqinə müdaxiləsi və Krımın işğalından sonra çoxları üçün hələ də belə bir sual öz aktuallığını saxlayır: Moskvadan ötrü növbəti hədəf hara olacaq? Nəzərə alsaq ki, heç kim Rusiya prezidenti Vladimir Putinin beynindəki fikirləri oxuya bilməz, bununla belə, ABŞ-dakı "Heritage" fondunun Xarici Siyasət Tədqiqatları Mərkəzinin direktoru Lyuk Kofi nüfuzlu "Newsweek" jurnalındakı məqaləsində bu suala cavab tapmağa çalışıb.

***

Analitik Rusiyanın postsovet məkanında gələcək hərəkətləri və mümkün hərbi müdaxiləsi ilə bağlı 6 ssenari qələmə alıb. Onun qənaətincə, Kremlin növbəti hədəfi məhz onlardan biri ola bilər.

Nəşr hədəf-ssenariləri belə sıralayır: **1.** Moldovadakı "qaqauz problemi", **2.** Gürcüstanda ermənilərin kompakt yaşadığı Cavaxeti bölgəsi, **3.** Türkmənistanın cənubunda "hərbi kömək", **4.** Qazaxıstana hərbi müdaxilə üçün ölkənin şimalındakı etnik rusların "müdafiəsi", **5.** Ukraynada "yarımçıq qalmış işlər" və **6.** Dağlıq Qarabağa "sülhməramlı" adı ilə hərbi qüvvələrin yeridilməsi.

**"Newsweek" Gürcüstanın Cavaxetiya bölgəsini yeni potensial konflikt ocağı kimi təqdim edərək yazır:** "Putin Gürcüstanı özünün təbii nüfuz dairəsi hesab edir və güc yolu ilə yenə də bu ölkəyə təsir etməyə hazırdır. 2008-ci ilin avqustunda Rusiya Gürcüstana soxuldu. Bu gün təqribən 11 minlik rus ordusu 2008-ci ildəki anlaşmanı pozaraq Abxaziya və Cənubi Osetiyanı işğal edib. Rusiya həmçinin bu ölkədə ermənilərin yaşadığı Samsx-Cavaxetiyadakı etnik gərginliyi də istismar edir. Məqsəd Rusiyanı Cənubi Osetiya və Cavaxetiya vasitəsilə Ermənistanla birləşdirəcək yeni təsir zonası yaratmaq ola bilər".

**Amerikalı analitikə görə, Cavaxetiyadakı erməni separatçıları bir neçə il öncə ilə müqayisədə bir elə aktiv olmasa da, Moskva regionda separatçı hərəkatı asanca qızışdıra bilər:** "Bunu asanlaşdıran başqa iki amil bölgədə ermənilərin iki dildə təhsil almağın mümkünsüzlüyü və Tiflisin Cavax ermənilərinə münasibətdə tətbiq etdiyi miqrasiya məhdudiyyətləridir. Cavaxetiya ermənilərinin bir çoxu Rusiyada işləyir. Bölgənin nəzarət altına keçməsi isə Rusiyaya imkan verəcək ki, yerüstü dəhliz vasitəsilə özünün Ermənistandakı hərbi mövcudluğunu daha da gücləndirsin. Unutmaq lazım deyil ki, region ərazindən həm də iri neft-qaz kəmərləri keçir *(Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəmərləri nəzərdə tutulur - red.)"*.

**Nüfuzlu nəşr Kremlin Dağlıq Qarabağla bağlı mümkün hərbi planı haqda da yazıb:** "2014-cü ilin avqustundan Azərbaycan və Ermənistan silahlı qüvvələrini təmas xəttində zorakılıq halları ciddi şəkildə artıb və bu ilin aprelində pik həddə çatıb. Vəzifəsi sülhün qorunması olan ATƏT-in Minsk Qrupu qanuni vasitəçi orqandır, lakin de-fakto fəaliyyət göstərmir. Əsas səbəb də Ukraynaya müdaxiləyə görə Moskva ilə Qərbin münasibətlərinin pisləşməsidir. Ukrayna konflikti isə Putinə Ermənistanda çoxminli hərbi qüvvə saxlamaq üçün əlverişli bəraət verib. Bundan əlavə, bir çox illər ərzində təkliflər olub ki, Rusiya Dağlıq Qarabağda Azərbaycanın iradəsi əleyhinə olaraq, sülhməramlılar yerləşdirmək istəyir".

**Məqalə müəllifi hesab edir ki, sülhməramlı adı altında qüvvələrin Qarabağda yerləşdirilməsi Moskvaya Güney Qafqazda daha bir strateji dayaq məntəqəsi yaratmaq imkanı verəcək:** "Bu, baş verərsə, o zaman ehtimal ki, Dağlıq Qarabağ bir daha Azərbaycanın tərkibinə qaytarılmayacaq, çünki Rusiyanın maraqları maksimal şəkildə uzunmüddətli hərbi mövcudluqdan qaynaqlanır. Başqa yandan, əgər Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu iqnor eləmək mümkündüsə, Azərbaycanın öz ərazisi saydığı Dağlıq Qarabağda Rusiyanın hərbi mövcudluğu Bakının Qərblə sıx əlaqələrinə əngəl yaradacaq".

***

Beləcə, nüfuzlu Amerika nəşri Dağlıq Qarabağa Rusiya sülhməramlılarının yerləşdirilməsi planı arxasında Azərbaycanın Qərblə əlaqələrini məhdudladırmaq niyyəti də görür. Bundan başqa, strateji əhəmiyyətli neft-qaz kəmərlərinin şimal qonşumuzun nəzarətinə altına keçməsi təhlükəsi yarana bilər ki, bu da Bakı ilə yanaşı, Qərbə, ABŞ-a da xəbərdarlıq mesajı təsiri bağışlayır.

Ancaq bunlar, qeyd edildiyi kimi, yalnız mümkün ssenarilərdir. Onların nə dərəcədə real olması yəqin ki, həm də Suriya məsələsində ABŞ və Rusiyanın anlaşıb-anlaşmayacağından, ümumiyyətlə, Yaxın Şərq böhranının necə yoluna qoyulacağından asılı olacaq...

❑ **Siyasət şöbəsi**

# Lahmacunu Moskvaya aparıb "lamadjo" edən ermənilər...



**Samir SARI**

**Bir ermənilərlə biz deyilik, Afrikanın mərkəzi hissəsində yerləşən Ruanda dövlətində yaşayan xutular və tutsilər də bir-birinə şiddətli şəkildə nifrət edirlər.**

Axtarsan, dünyanın dörd bir tərəfində bir-birini çəkə bilməyən, yola getməyən qonşu xalqlar, dövlətlər var. Düzdür, artıq onların çoxu bir-biri ilə qanlı müharibələr aparmırlar, amma daima çəkişirlər.

Bu baxımdan ermənilərlə bizim aramızdakı münaqişə və düşmənçilik xüsusi bir şey deyil. Düşmənlər heç yerdə bir-birinə qarşı hörmət-izzətli, sayğılı olmurlar, həmişə didişirlər.

İntəhası, bu məsələdə elə bir xüsusat var ki, imkan olsa, adam araşdırıb öyrənərdi ki, xutularla tutsilər necə edir, onlar da "dolma sənin, dolma mənim, dolma heç kimin" davası edirmi, hansısa qara gəlinə həsr olunmuş ("ay nənən ölsün, qara gəlin" tipli) mahnıya görə savaşırlarmı? Kim bilir, bəlkə də xutular toya güllü tumuş geyməyi ilk olaraq özlərinin icad etdiyini deyir, tutsilər də buna etiraz edirlər?

Yəni onlarda da belə şeylər ola bilər. Düşmən oldunsa, gərək axıradak və bütün məsələlərdə çəkişəsən, "filan məsələdə siz haqlısız" söhbəti ola bilməz.

Ermənilər bu işdə çox qabağa gediblər. Onlarla bizim aramızdakı Qarabağ, Göyçə gölü, "Sarı gəlin", dolma, lavaş davalarına hər gün yeniləri əlavə olunur.

Axırıncı dəfə ermənilər Moskvada bir kafe açaraq Anadolu türklərinin mətbəxinin yeməyinə - lahmacuna kürəkeş uzadıblar, türkün sözü, fırından çıxarıb deyiblər, bu, bizim qədim yeməkdir, adı da lamadjodur.

Əgər bu işi edənlərin fantaziyası bir az geniş olsaydı, "lahmacun"un adını dəyişib ona yaxın "lamadjo" qoymazdılar, məsələn, "turdacum" (bu sözün ilk hecasının mənasını erməni dili bilənlərdən soruşun) qoyardılar. Amma bunun üçün beyinə əziyyət vermək lazımdır, ən yaxşısı, yeməyi götürüb mənimsədiyin kimi adını da bir azca erməniləşdirirsən, qurtarıb gedir.

O gün bu barədə süjet hazırlayan türk televiziyasında türklər hiddətlənib eləmədən deyirdilər ki, ermənilər lahmacun bişirə bilərlər, amma bizim kimi ləzzətli bişirə bilməzlər. Bir ağsaqqal isə söhbəti tarixi aspektdən xırdalayırdı: "Əslində lahmacun ərəb mənşəli kəlmədir, "lahm" ət deməkdir, "acin" isə xəmir, yəni ətli xəmir".

Hiss olunurdu ki, ermənilərin "lamadjo" bişirərək, "bizim yeməkdir" deməsi Anadolu türklərinə bir az yer eləyib, sadəcə, özlərini o yerə qoymurlar və yəqin ki, YUNESKO-ya şikayət-filan da etməyəcəklər, sadəcə, lahmacun yemək istəyən turistlərə deyəcəklər, o ermənilərin lamadjosu, bu da bizim lahmacun, yeyin, baxın, özünüz qiymət verin.

Bu söhbət, əlbəttə ki, yaponlara və cənubi koreyalılara çox qəribə görünə bilər. Çünki onlar bu saat dəmirdən, rezindən adam, it, öküz robotları hazırlayıb yeridib-yüyürtməklə, hürdürüb-böyürtməklə məşğuldurlar. Oralarda robotlara resepti verirlər, 15 dəqiqəyə pizza bişirib masaya gətirir, bizim coğrafiyada isə hələ də dizi yerə atıb saca yuxa salmağı ilk dəfə kimin icad etməsi üstündə dava gedir.

Hələ bu harasıdır? Çin ABŞ-dan "Hammer"i alıb, öz xammalı ilə "kitayski" "hammer"lər buraxır, ermənilər və biz "cəhrə bizim alətdir" deyə dalaşırıq.

Tərs kimi, elə məsələdir ki, biz ağıllı, müdrik, türkün sözü, xoşgörülü olub, "yaxşı, sizindir, sizin olsun" deyə bilmirik. Desək, dərhal deyəcəklər ki, "ələk də bizimdir, nehrə də, həvə də, kirgit də, yəhər də, quşqun da, səhəng də". Bir sözlə, nə qədər qədimi alət və avadanlıq var, məlum olacaq ki, hamısı ermənilərindir. Xasiyyətləri bu cürdür, neyləmək olar.

Gərək bizim qonşularımız yaponlar olaydı və biz onlara baxıb onlar kimi olmağa çalışaydıq, robot düzəldəydik, kompüter yığaydıq, nano texnologiya üzrə rəqabət aparaydıq.

Ermənilərin də qonşuları cənubi koreyalılar olsaydı, bəlkə onlar da bir tərəfə çıxardılar. Hərçənd onları bilmək olmaz, koreyalılar bir də görərdilər ki, ermənilər deyirlər, "Hunday" bizimdir, "Samsunq"u da biz icad etmişik.

# Respublikaçılar Trampdan vaz keçmədi

**ABŞ-da Respublikaçılar Partiyası Donald Trampın prezidentliyə namizədliyini dəstəkləməyə davam edəcək. "Politico"nun verdiyi məlumata görə, bu barədə Respublikaçılar Partiyası Milli Komitəsinin sədri Reyns Pribas deyib.**

"Münasibətimizdə heç nə dəyişməyib və biz bütün səviyyələrdə bu seçki kampaniyasına cəlb olunmuşuq. Kampaniyanın aparılması barədə birlikdə qərar veririk", - deyə o vurğulayıb.

Pribas Trampın partiyanın dəstəyini itirməsi barədə məlumatları şayiə adlandırıb. Onun sözlərinə görə, digər namizədin axtarılması barədə söhbət belə olmayıb.

Qeyd edək ki, D. Trampın 11 il əvvəl qadınlar barədə təhqiramiz ifadələrinin əks olunduğu videoçarx ABŞ-da rezonansa səbəb olub. Həmin videoçarx yayıldıqdan sonra sutka ərzində 40-dək nüfuzlu respublikaçı onu dəstəkləməkdən imtina edib. Respublikaçılar Partiyası rəhbərliyinin Trampın namizədliyinə baxılması üçün partiyanın Milli Komitəsinin iclasının çağırılması barədə qərar verdiyi barədə məlumatlar da yayılıb.

Tramp seçki kampaniyasını davam etdirəcəyini bəyan edib. ABŞ-da prezident seçkiləri noyabrın 8-də baş tutacaq.(APA)





# Sərdar Cəlaloğlu ilə meyit yarmaqdan, Nobel mükafatı mövzusuna qədər söhbət

## "Əsgərin beynindəki o damarı kəsib şüşə qaba qoydum"

**Demokrat Partiyasının vağzal tərəfdəki qərargahında Sərdar Cəlaloğlundan başqa heç kim yox idi.**

***

Hiss etdim, nikolaydanqalma bu köhnə, tarixi binaya indi tam sükunət, payız fəsli, bir də Sərdar bəyin yalnız özü hakimdi. Gözü yaşlı köhnə su borularından daman suyun səsi məni Sərdar bəyin kabinetinədək təqib etdi. İçəridə, belini büküb kompüterin içinə girən tənha bir kölgədə Sərdar bəyi tanımaq, düzü, məndən 10-15 saniyə vaxt istədi. Gözlərimi qıydım. İçəriyə yaxşı-yaxşı boylandım. Sərdar bəy məni görüncə cəld ayağa qalxdı. Təkərli kreslosunu dabanıyla geri itələyib, üstümə şığıdı. Kölgəsi, özündən tez gəlib haqladı məni. Kabinetin zəif, sarımtıl işığında, nəhayət, qəddi-qamətli Sərdar bəyi tanıdım.

- Sizi qərargahımızda görməyə xeyli şadam.

***

Sərdar bəy ixtisasca həkim, dəqiq desək, məhkəmə-tibb eksperti, həm də patoloqanatomdur. Loru dillə desək, meyityaran, ölümün səbəbini araşdıran elmi mütəxəssisdir. Sərdar bəyi indiyədək hamı siyasətçi kimi dindirib. Əsl peşəsinə əsla fikir verməyiblər. İndi mən, ilk dəfə bu nöqsanı düzəltmək, Sərdar bəyi tibb eksperti, patoloqanatom kimi dindirmək istəyirdim. Hiss edirdim bu, Sərdar bəyin o qədər də ürəyindən olmayacaq.

Nə isə. Alçaq masa arxasındakı yumşaq kreslolarda yerimizi rahatlayıb başladıq ordan-burdan danışmağa. Ortada çay-zad da yoxdu. Masa üstə bir-iki köhnə qələmdi, bir də beş-altı səhifə ağ kağız.

İlk sualım siyasətə deyil, kriminalistikaya aiddir.

*- Sərdar bəy, sizə bir mütəxəssis kimi müraciət etmək istərdim. Bilirsiniz də, dünyada çoxsaylı qatı açılmamış müəmmalı qətl hadisələri mövcuddur. Minlərlə alim, araşdırmaçı bu cür oxşar qətllərin düyünlərini açmaq, cinayətkarı üzə çıxarmaq istəyir. 2010-cu ilin avqustunda Londonda müəmmalı bir qətl hadisəsi baş verib. İdman çantası içindən Britaniya kəşfiyyatçısı Haret Uilyamsın cəsədi aşkarlanıb. Mərhum postsovet oliqarxlarının maliyyə transferlərini güdürmüş. "Formula-1" yarışlarında adı hallanan Qazaxıstan milyarderi Alican İbrahimovun oğlu Furqatla yaxın münasibətdə imiş. Meyit üzərində zorakılıq izləri əsla mövcud deyil. İşdə qəliz tapmaca var - zərərçəkən, çantanın içinə lüm-lüt soyunaraq özü girib. Çantanın zəncirini məhz özü içəridən çəkib bağlayıb. Hadisə çoxlarını, hətta MOSSAD-ı da maraqlandırıb. Dünyanın ən məşhur kriminalistləri, patoloqanatomları Haret Uilyamsın qətlini açmaq naminə sıraya düzülüblər. Əfsus, bu tapmacada hələ də müsbət irəliləyiş yoxdu. Bu barədə...*

Sərdar bəy, görünür, azca səbirsizdi. Sözümü ağzımda yarımçıq kəsir.

- Rəyimi soruşursuz?

Təkcə elə qısa "bəli" kəlməsi ilə kifayətlənib, bütün diqqətimi Sərdar bəyin narahat sifətinə zilləyirəm. Cavab özünü çox gözlətmir.

- Zərərçəkənin beynində psixotrop dərmanların təsiri, izi öyrənilməlidir. Xüsusi analizlərə dərin ehtiyac var. Məncə, onu psixotrop dərmanlarla idarə edib çantanın içinə yerləşdiriblər. Məcbur ediblər içəridən zənciri çəkib çantanı bağlasın. Sonra...

***- Sonra noolub orda, Sərdar bəy? Deyin, bilək.***

Vaxtilə, 80-ci illərdə, gözdən qulaqdan uzaq əyalətdə - Naxçıvanda məhkəmə tibb eksperti işləmiş bu insanın səriştəsi, təcrübəsi indi də məni heyran qoyur.

- Sonra həmin Haret Uilyams çanta içində yuxulayıb birdəfəlik. Bir daha ayılmayıb.

- Rəyinizi o vaxtlar adətən bax bu cür qələmə alardız, eləmi Sərdar bəy? - deyincə, aramızdakı alçaq masadan cəld geri çəkilirəm. Kürəyimi kresloya dirəyib sükuta dalıram.

Payızın ılıq nəfəsi pəncərədən axıb, Sərdar bəyin kabinetində də hiss olundu bu vaxt. Hər ikimiz, bir-iki saniyə bu xoş ətirlərin təsirinə düşüb sonra tez də ayıldıq. Qayıtdıq söhbətimizin qəliz mövzusuna. Aramızdakı ani, incə sükut buzunu Sərdarın özü qırdı.

- Naxçıvanda, Zaqafqaziya hərbi dairəsinin ərazisində cavan... - Sərdar bəy gözlərini yumub, qəmli xatirələrinə başladı. - 18 yaşlı bir rus əsgəri vəfat etmişdi. Meyiti yarmaq üçün mənə etibar etdilər. Yazıq idman zamanı, uzaq məsafəyə qaçarkən qəfil yıxılıb ölmüşdü. Meyitlə çox əlləşdim. Gördüm, həəə.... mərhumun beyin damarlarının birində "anavrizma" izləri var. Yəni damar divarları genişlənib, incəlib. Təzyiq olsa, vəssalam, yırtılacaq. Belə bədbəxtləri əsgərliyə çağırmaq, idman dərslərinə buraxmaq qəti qadağandı. Olmaz. Heç nə...dedim, birdən yoxlama gəlib çıxar Bakıdan, yaxud iraq olsun, Zaqafqaziya Hərbi Dairəsindən. Məni qeyri-peşəkarlıqda ittiham edərlər. Damarı götürüb, nadir nümunə kimi, basdım ağzı kip örtülən şüşə balona. Sonra spirtlədim. Yaxşı ki, elədim bunu. Bir il sonra, elə bil qəsdən, məhz bu hadisəyə görə iş yerimə yoxlama gəldi. Məni çox imtahana çəkdilər o vaxt. Bilirdim haqlıyam. Şüşə balondakı damara güvənirdim. Axır balonu açıb həmin damarı komissiya üzvlərinə sərgilədim. Gözləri bərələ qaldı.

Eşitdiklərim məni xeyli həyəcanlandırır. Mövzunu burda, bu həlledici məqamda qapatmaq istəmirəm. Solaxay, fərqli sual ünvanlayıram Sərdarın göz bəbəkləri dərinliyinə.

***- Daha nələri spirtləyib saxlayırsınız zirzəminizdə? Deyin, qorxmayın.***

Kənardan baxıb görürəm - sualım Sərdar bəyi əməlli-başlı diksindirir. Araya sükut çökür. Paslı borulardan sızan damcıların səsi qulağımı dəlir bir an.

***

Çox keçmir sualımı dəqiqləşdirirəm.

***- Misal üçün, Elçibəyin vəfatı ilə əlaqədar sizi patoloqanatom kimi dəvət etsəydilər neynərdiz?***

Gözlərim özümdən ixtiyarsız Sərdar bəyin kabinetində Elçibəyin şəklini axtarır bir an. Əfsus, tapa bilmirəm. Eşikdəki payızmı kövrəldir bizi? Yoxsa daxilimizdəki lal xatirələr? Bilmirəm dəqiq. Görürəm Sərdar bəyin qurumuş, ağarmış dodaqları titrəyir.

- Vəfatından əvvəl Elçibəyi bilmirəm harda, hansı ünvanda ziyarət etdim. Oturmuşdu köhnə pal-paltarda soba önündə. Soyumuş əllərini uğursuzcasına qızdırmaq istəyirdi. Baxdım sifəti şişib. O yaşda bədəndə ciddi silkələnmələr baş verir... Bəyə dedim ki...

Həəə... Sərdar bəyin, deyəsən, köhnə adətidir. O, hamıya, fərqi yoxdu Elçibəy olsun, yaxud bir başqası, o cümlədən hətta mənə də, xəstə, ölü cəsəd kimi baxır əvvəlcə. Siftə, əlinə pinset götürüb, adamın döş-qarın nahiyəsini yarır elə bil. Sonra, patoloqanatom kimi, əlində pinset, insan beynini açır. Elçibəylə son görüşündə Sərdar bəy özünü əsl patoloqanatom kimi aparıb. Nə isə hiss edib deyəsən.

***- Elçibəyin ölümü şübhəlidir? -sualıma o, anında etiraz edir.***

- Yoxxxxxx...

***- Bəs Rövşən Cavadovun oğlu Laçının vəfatı necə, çoxmu şübhəlidir? Şıxəli Qurbanovun ölümü bəs necə, sizdə şəkk-şübhə doğurmayıbmı bir vaxt?***

İmtahan suallarını xatırladan suallarım, nəhayət, bir nöqtədə - Şıxəli Qurbanovun vəfatı mövzusunda ilişib qalır.

- Buna "anaflaktik şok" deyirlər. Dişinə iynə vurublar. Şok keçirib.

Sərdarın mövzuları azdırması xoşuma gəlmir. Sualımı lap qəlizləşdirirəm.

***- Bəs Turqur Özalın vəfatı necə, sizi düşündürməyibmi? Yaxud Berezovskinin ölümü?***

- İki cür zəhər var, biləsiniz. Qalıcı və keçici zəhərlər. Sioniddən istifadə ediblərsə, izləri qalacaq. Elə dərmanlar var ki, onların qəbulu insanda intihara cəhd meyli yaradır. Berezovskinin qətlində, görünür, oxşar dərmanlardan istifadə edilib.

Sərdar bəyin üzünə bir də baxıb onun bu gününü deyil, uzaq keçmişini gördüm sanki. Nə vaxtsa, hələ Naxçıvanda ikən, Zaqafqaziya hərbi dairəsinin ştatdan kənar eksperti də işləyib o. Hərbçilər, bilməm niyə, ona öz meyitlərini tapşırıblar. Görünür, milli, əyalət çərçivələrini o vaxt adlayıb Sərdar bəy. Milli cəsədlərdən sonra ona rus meyitlərini etibar ediblər.

***- İlk yardığınız cəsədi heç xatırlayırsınızmı? - sualım, deyəsən, özümü də diksindirir.***

- Rusdu. Alkaşdı. Meyiti atılıb qalmışdı Naxçıvan meyitxanasında. Müayinədən çıxarıb, nəticələrimi kağız üzərinə köçürdüm.

***- Bəs son dəfə kimin cəsədini yarıbsız, Sərdar bəy?***

Həəəə...burda, durnanı, necə deyərlər, düz gözündən vururam. Sərdar bəy əvvəlcə ağzını açıb nəsə demək istəyir mənə. Ağzı-dodaqları titrəsə də, qəribədir lap, dilindən bircə söz çıxmır nə üçünsə. Nəhayət, birdəfəlik susur. Lal bir baxışla mövzunu dəyişməyi xahiş edir.

***

Patoloqanatom, məhkəmə tibb ekspertləri üçün çox vacib sayılan "meyit qacaması" deyilən bir məfhum mövcuddur. Meyit qacaması, beyindən başlayıb, sonra daxili orqanlara keçir, sonra əzələyə, lap axırda dəri örtüyünə.

- Virxov adlı bir rus həkiminin kəşf etdiyi bu qanunla, həəə, ölümün səbəbini, vaxtını dəqiq müəyyənləşdirmək mümkündü indi. Buna "parabioz" da deyərlər. Elmdə bunun minə yaxın izahı var. Məsələn, uzunsov beynin zədələnməsində meyit qacaması anında, ildırım sürəti ilə baş verir. Uzun sürən xroniki xəstəliklərdən sonra isə tam tərsinə, meyit qacaması olmaya da bilər.

***- Maşallah, özümü tibb kafedrasında hiss edirəm. Bilikləriniz mükəmməldir. - deyib, təəccübümü gizlətmirəm.***

- Naxçıvanda tək deyildim. Sülhəddin Əkbər də mənlə idi. O da patoloqanatom, məhkəmə tibb eksperti idi orda. Meyitlərdən sonra başlardıq siyasi söhbətlərə...

***- İndi də bu adətiniz təkrarlanır? Yoxsa...- necə deyərlər "oxu atıb, yayı gizləyirəm". Sərdar bəyin suallarıma reaksiyasını öyrənirəm.***

O, üzünü turşudub, dodaqlarını büzür əvəzində.

- Yox, nə danışırsınız. Əvvəllər belə idi. Şeyx Nəsrullahla səhv salmayın, xahiş edirəm bizləri. Qayıdaq o köhnə xatirələrimə.

***- Qayıdaq.***

- Hə... 80-ci illərdə "meyit qacaması" mövzusunda elmi referat yazıb onu SSRİ Müdafiə Nazirliyi məhkəmə-tibb mərkəzinin rəisi general-leytenant Tomilinə təqdim etdim. Məni ora işə dəvət edirdilər. O vaxtkı cari siyasi gündəm nə isə...araya girdi...axtarışlarım yarımçıq qaldı.

Sərdar bəy başını bulayıb yerindən qalxır. Pəncərə qarşısında bir xeyli dayanıb susur.

Ona qətiyyən mane olmuram.

***

Amma ürəyinizi çox sıxmayın bu barədə. Sərdar bəyin elmi araşdırmaları indi də davam edir. Mətbuat xəbər verir ki, o, bu dəfə öz elmi kəşflərini Moskvaya, Müdafiə Nazirliyinə deyil, Ümumdünya Nobel Komitəsinə ünvanlayıb. Tədqiqatın adı "Kosmik dəyişmələr barədə nəzəriyyə"dir.

***

21 dekabr 2012-ci ildə, hamı bilir, kosmosda "planetlərin paradı" baş verib. "Sehirli xalat" filmindəki məşhur ""Qüdrətli xan həzrətləri! Qüdrətli xan həzrətləri! Göyün yeddinci qatında Ütəriyyə, Müştəri, Mürrix, Çəyvan və Nahid ulduzları təxti-tacımıza, səltənətimizə qarşı qorxulu vəziyyətdə asılıb qalıblar!" harayını bu paradın hələ 60-cı illərdə səslənən xəbərdarlığı kimi də qəbul etmək olar. Qısası, 21 dekabr tarixində bu parad nəticəsində kosmosda ciddi dəyişmələr baş verib. 26 min ildən bir kosmosda özünü göstərən bu parada astrofizika elmində "Rervolyutsiya" deyirlər. Bu cür inqilabdan sonra adətən kainat yeni fiziki qanunlar dövrünə qədəm basır.

Sərdar bəy həmin bu dəyişikləri incələyib. Nəticələrini Nobel Komitəsinə göndərib. Əvvəl 3000 ekspertin müsbət rəyini qazanan sənəd sonra 200 alimdən təqdir görüb. Ancaq gizli səsvermədə ilişib. Qələbə, ingilis alimlərinə verilib.

Sənədin qısa məzmunu təxminən belədir - "Kosmosdakı son dəyişkənliklər nəticəsində, sistemlər arasındakı Nyuton cazibəsi azalıb. Cazibənin azalmağına ekvivalent olaraq, qapalı səma sistemlərində daxili cazibə-imploziya artıb. Braun qanunlarına görə, sistemlər öz dayanaqlığını həmişə qoruyur. Nəticədə kəmiyyət dəyişmələri baş verir. Nəticə: demək, hər cisim, öz çəkisini azaltmalıdır. Və azaldır da."

***

Sərdar bəydən əvvəl oxşar mövzuda rus alimi Valentina Mironovanın məqalələrini də oxumuşam. Cəlaloğlunun da, Mironovanın da nəticələri eynidir - 2012-ci il 21 dekabrdan sonra, dünyanı və kosmosu təşkil edən proton hissəciklərinin çəkisi azalıb. Hidrogen atomu 4 faiz kiçilib. Bu isə gələcəkdə bütün digər cisimlərə təsir edəcək. Maqnit sahəsinin strukturları da dəyişmək üzrədir və sair və ilaxır.

Bizdə hələlik bu, Sərdar Cəlaloğlundan başqa kimsəni həyəcanlandırmır. Kimsə qələmə əl ataraq bunu incələmir.

Sərdar bəy isə vallah, "Sehrli xalat" filmindəki tanış köhnə harayı yenidən diqqətimizə çatdırıb - "Qüdrətli xan həzrətləri! Qüdrətli xan həzrətləri! Göyün yeddinci qatında Ütəriyyə, Müştəri, Mürrix, Çəyvan və Nahid ulduzları taxt-tacımıza, səltənətimizə qarşı qorxulu vəziyyətdə asılıb qalıblar".

Sərdarın, pianarın, münəccimlərin nigarançılığını, vallah, mən indi əvvəlkindən də yaxşı dərk edirəm.

**Az qalıb, vallah, lap az...**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

# Bu gün Aşuradır

## 14 məsciddə qanvermə aksiyası təşkil olunacaq; dövlət qurumları gücləndirilmiş iş rejiminə keçib

**Oktyabrın 12-də bütün müsəlman dünyasında İmam Hüseyn və tərəfdarlarının şəhid olduğu gün- Aşura günü qeyd olunur.**




Məlumat üçün qeyd edək ki, Aşura - hicri təqviminin ilk ayı olan məhərrəm ayının 10-cu günüdür. Sözün ərəb dilindən tərcüməsi də "onuncu gün" deməkdir. Hicri təqvimi ilə 61-ci ilin həmin günündə, miladi təqvimi ilə isə 680-ci ilin oktyabrında Həzrət Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə) öz yaxın qohumları və silahdaşları ilə Kərbəla səhrasında faciəli surətdə qətlə yetirilib.

Kərbəla faciəsinin tarixini "Yeni Müsavat"a danışan dini ekspert Kənan Rövşənoğlu İmam Hüseyn (ə) və tərəfdarlarının qeyri-bərabər döyüşdə vuruşaraq şəhid olduğunu bildirdi: "680-ci ildə xəlifə taxtına atasından sonra oturmuş Yezid ibn Muaviyəyə beyət (hakimiyyətini tanımaq) etməyən İmam Hüseyn (ə) və yaxın tərəfdarları Məkkədə sui-qəsd təhlükəsindən sonra İraqa yola düşür. Kufə şəhərinə gedərkən Kərbəla adlı ərazidə xəlifənin və Kufə valisinin göndərdiyi ordu qarşısını kəsir. Ordu komandanı Ömər ibn Səid təklif edir ki, xəlifənin hakimiyyətini qəbul eləməlidir. İmam Hüseyn (ə) bundan imtina etdiyi üçün mühasirəyə alınır və çayın yolu kəsilərək susuz saxlanılır. Ancaq İmam Hüseyn beyət etmir. Məhərrəm ayının 10-da xəlifənin ordusu hücum edərək İmam Hüseyn (ə)-i və tərəfdarlarını qətlə yetirirlər. İmam və tərəfdarları Yezid ordusu ilə qəhrəmancasına döyüşüb həlak olur. Ailəsini isə əsir alaraq Dəməşqə, xəlifənin sarayına aparırlar. Bu hadisə İslam aləmində çox böyük kədərə səbəb olur. Peyğəmbərin nəvəsinin öldürülməsi, ailəsinin əsir alınması, başının kəsilib xəlifəyə göndərilməsi narazılıq yaradır.

Səhabələr Kərbəlaya gedərək İmam Hüseynə yas tuturlar. Sonrakı illərdə də müsəlmanlar İmam Hüseynə yas tutur, hər il Kərbəlaya gedərək matəm saxlayırlar. Əsrlər boyudur bu matəm ənənəyə çevrilib, hər il hicri qəməri təqvimi ilə insanlar Aşura günü əza saxlayırlar, İmam Hüseynin qeyri-bərabər döyüşdə qəhrəmancasına qətl edilməsini yad edirlər. Həmin gün əza saxlayıb İmam Hüseyni (ə) yad etmək savabdır".



Qeyd edək ki, dini ədəbiyyatda Aşuraya keçən gecəni oyaq qalıb əhya saxlamaq tövsiyə edilir. İnsan bu gecə öz evində və ya öz şəhərindəki məsciddə də oyaq qalsa, savab sahibi olar. Aşura gecəsində çox namaz qılmaq, dua etmək, Aşura şəhidlərinin müsibətini yada salmaq, xüsusilə həmin gecə Kərbəlada susuz qalmış Əhli-beyt körpələrinin və qadınlarının vəziyyətini xatırlamaq, öz günahlarının bağışlanması üçün Allaha yalvarmaq savabdır. Aşura günündə möminlər yaxşı olar ki, Kərbəla faciəsini bir an da olsa unutmasınlar, kədər içində olsunlar, şadlanmağı özlərinə rəva bilməsinlər. Aşura gününü mütləq məsciddə keçirmək lazım deyil. İnsan öz evində də bu günü qeyd edə bilər. Amma Aşura günündə məscidlərdə, ziyarətgahlarda qurulan əza məclislərində iştirak etməyin savabı daha böyükdür.

Bir şərtlə ki, həmin yerlərdə qurulan məclislər mövhumatdan və xurafatdan uzaq şəkildə, əsl İmam Hüseynə (ə) və Aşura şəhidlərinə layiq formada keçirilsin. Aşura gününün qeyd edilməsində əsas məqsəd insanları ağlatmaq deyil. Ağlamaq da haqqa bağlılığın və məzlumlarla həmrəyliyin bir növüdür, zülmə qarşı etiraz formasıdır. Bu məclislərə toplaşıb Aşura hadisəsini yad edən, şəhidlərə mərsiyə deyib ağlayan adamlar İmam Hüseynin (ə) hansı məqsədlər uğrunda mübarizə apardığını öyrənir, onunla düşmənçilik edən qüvvələri tanıyırdılar. Kərbəla səhrasında baş vermiş rəngarəng hadisələrin təsvirini eşidir, şəhidlərin mübarizlik məktəbindən dərs alırdılar. Həzrət Məhəmməd Peyğəmbər (s) öz sağlığında İmam Hüseynin (ə) gələcək şəhadətini dəfələrlə xəbər verməşdi. Bu hədislərin bir qismində Kərbəla faciəsinin sonrakı nəsillərə də böyük ideoloji və əxlaqi təsir göstərəcəyi bildirilir. Hədislərin birində deyilir ki, Peyğəmbər buyurub: **"Hüseynin qətli möminlərin qəlbində heç vaxt sönməyəcək bir hərarət yaradar".**

Qeyd edək ki, hər il olduğu kimi, bu il də oktyabrın 12-də Azərbaycanın bütün məscidlərində Aşura mərasimləri keçiriləcək. Həmin gün savab olan əməllərdən biri də qanvermədir. Azərbaycanda Aşura günü qanvermə aksiyası keçiriləcək məscid və ziyarətgahların siyahısı açıqlanıb. Səhiyyə Nazirliyindən verilən məlumata görə, qanvermə ölkə üzrə Səhiyyə Nazirliyinin Mərkəzi Qan Bankından başqa, 14 məsciddə təşkil olunacaq. Bu məscidlərin 8-i Bakıda, 6-sı isə digər rayon və şəhərlərdə yerləşir. Aksiyalar Bakıda Mərkəzi Qan Bankında, Yasamal rayonunda "Təzəpir" məscidi və "Hacı Soltanəli" məscidləri, Səbayel rayonunda "Bibiheybət" və İçərişəhər "Cümə" məscidləri, Suraxanı rayonu "Qaraçuxur" qəsəbə məscidi, Xəzər rayonu "Mirmövsüm ağa" ziyarətgah-məscidi, Nizami rayonu "Keşlə" qəsəbə məscidi, Nəsimi rayonu "Əjdərbəy" məscidində təşkil olunacaq.

Bununla yanaşı, Sumqayıtda "Cümə" məscidi, Gəncədə "İmamzadə" ziyarətgah-məscidi, Mingəçevirdə "Heydər" məscidi, Şəkidə "Çümə" məscidi, Lənkəranda "Böyük Bazar" məscidi, Bərdədə "Cümə" məscidində də qanvermə aksiyası keçiriləcək. Tədarük olunan qan və qandan hazırlanan preparatlardan hemofiliya və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunacaq.

Həmçinin Bakıda Aşura mərasimləri ilə əlaqədar insanların kütləvi iştirakını nəzərə alaraq təhlükəsizlik tədbirləri də gücləndiriləcək. Aidiyyəti dövlət qurumları bunun üçün hərəkətə keçib.

**Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Səhlab Bağırov bildirib ki, paytaxtda Aşura mərasimlərinin keçiriləcəyi yerlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar təhlükəsizlik tədbirləri gücləndiriləcək:** "Hər il olduğu kimi, bu il də Aşura günü ilə əlaqədar ictimai asayişin qorunması məqsədilə oktyabrın 12-si paytaxt polisi gücləndirilmiş iş rejimində çalışacaq, ictimai asayiş lazımi şəkildə təmin ediləcək".

Rəis müavini həmçinin qeyd edib ki, Bakının bütün məscidlərində və ziyarətgahlarında ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə ərazilərə əlavə polis naryadları təyin olunacaq. Dini ayinlərin keçiriləcəyi yerlərə müdaxilə edilməyəcək. Lakin müəyyən edilmiş yerlərdən kənarda mərasimlərin, küçə yürüşlərinin keçirilməsinə imkan verilməyəcək.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da bununla bağlı vətəndaşlara müraciət edib. O, Aşura günü bütün tədbirlərin məscidlərdə keçirilməsini tövsiyə edib:** "Dini xarakterli bütün ayinlər məsciddə və yaxud məscidin həyətində keçirilə bilər. O cümlədən dini atributlar, dini xarakterli bu və ya digər bayraqlar məscidin içərisində istifadə olunmalıdır. Dini ayinlərin icrası zamanı qanuna əməl edilməlidir".

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən verilən məlumatda da bildirilir ki, oktyabrın 12-də yol polisi də gücləndirilmiş iş rejimində çalışacaq. Mərasimlərin keçiriləcəyi yerlərdə və ətraf ərazilərdə yol hərəkəti təhlükəsizliyini təmin etmək məqsədilə Dövlət Yol Polisi tərəfindən lazımi qüvvələr ayrılıb. Mərasimlərlə əlaqədar bəzi ərazilərdə nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıla bilər.

❑ **Nərgiz LİFTİYEVA**



# Psixoloji xəstəliklərin sayı niyə artıb?

## Dəyanət Rzayev: "Burada həm qohumluq , həm də sosial problemlər rol oynayır"

**Azərbaycanda psixi sağlamlıqla bağlı həkimə müraciət edənlərin sayı ildən-ilə artmaqdadır. Səhiyyə Nazirliyi Psixi Sağlamlıq Mərkəzinin direktor müavini Rüstəm Salayev deyib ki, hazırda Azərbaycanda psixoloji xəstəliklərdən əziyyət çəkən kimi qeydiyyatda 80 min nəfər var. Ümumilikdə isə il ərzində dispanserdə qeydiyyatda olanların sayı 70-82 min nəfər arasında olur. Direktor müavini qeyd edib ki, müraciətlərin arasında adi məişət problemlərindən tutmuş boşanmaya qədər hər cür problemlər yer alır. Depressiyalarla bağlı da müraciətlərin çoxluq təşkil etdiyini deyən R.Salayevin sözlərinə görə, ruhi xəstəliklərlə bağlı da mərkəzə müraciət edənlər olur: "Bu il bir çox intihar halını vaxtında aşkarladığımızdan qarşısını ala bilmişik. Depressiyada olanların haradasa 20 faizi intihar etmək barəsində fikirləşir. Təbii ki, bu da çox böyük rəqəmdir".**

Maraqlıdır, insanları bu cür düşünməyə vadar edən, depressiyaya salan hansı amillərdir? Nəyə görə ruhi xəstələrin sayı artıb?

**Psixoloq Dəyanət Rzayev** bunun artmasına həm qohum evliliklərinin, həm də sosial problemlərin səbəb olduğunu dedi: "Ruhi xəstəliklərin tipologiyası bilinmir. Məsələn, şizofreniya kimi ağır xəstəliklər var. Əslində qohumluq münasibətləri, yəni qohumla ailə qurmaq kimi məsələlərin də buna təsiri çoxdur. Çünki bu, genetik olaraq keçə bilər. Psixi pozuntularla münasibətlər, sosial problemlər və sairə də təkan ola bilər. Normal ölkələrdə insanlar 6 saat işləyir. İşə gedib gəlmək də ora daxildir. Əgər yoluna 2 saat gedirsə, o da iş saatına daxil olur. Amma bizdə insan 12 saat işləyir ki, bu da normal deyil. Əmək Məcəlləsində də bu normal deyil. Ona görə də təbii ki, belə şeylər çoxdur. Burada həm qohumluq , həm də sosial problemlər rol oynayır".

**Ruhi xəstələrin sayının artması məsələsinə gəlincə isə Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova bu artımın olmadığını dedi:** "Orada həkim demək istəyir ki, insanlar artıq psixoloq yanına getməyə utanmır. Yəni o stereotipləri qırırıq. O demir ki, ruhi xəstələrin sayı artıb, deyir ki, müraciətlərin sayı artıb. Azərbaycanda ruhi xəstələrin statistikasını Səhiyyə Nazirliyi aparmır".

Ümumilikdə 2016-cı ilin ilk ayları üçün psixi pozuntular və davranış pozuntuları diaqnozu ilə qeydə alınmış xəstələrə dair statistik məlumatlara nəzər salsaq görərik ki, 2016-cı ilin əvvəlinə müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan xəstələrin sayı 96 min 79 nəfər olub. 2015-ci ildə ilk dəfə psixi pozuntular və davranış pozuntuları diaqnozu ilə qeydə alınmış xəstələrin sayı isə 5 min 107 nəfər olub. Onlardan 3530 nəfəri kişilər, 1577 nəfəri isə qadınlardır. Statistika göstərir ki, ötən illə müqayisədə Azərbaycanda ilk dəfə psixi pozuntu diaqnozu qoyulan xəstələrin sayında 2 dəfə artım qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatının açıqladığı rəsmi statistik rəqəmlərə görə, Azərbaycanda intihar edənlərin yalnız 15-20 faizi ruhi xəstələrdir. Həmçinin intihar edənlərin 15-20 faizi "psixiatr və ya psixoloqun nəzarəti altında ola bilərdilər" cümləsi də burada ifadə olunur. Yerdə qalan 50-60 faiz isə sağlam insanların payına düşür. Bura xərçəng xəstələri, həyat yoldaşını itirən şəxslər, həmçinin sosial və digər problemlərdən özlərinə qəsd edən insanlar daxildir.

❑ **Günel MANAFLI**

**Naxçıvan Muxtar Respublikasının həbsdə olan sabiq milli təhlükəsizlik naziri, general-mayor Vəli Ələsgərov Naxçıvan cəzaçəkmə müəssisəsindən Bakıdakı 1 saylı İstintaq Təcridxanasına köçürülmək istəyir.**

# Naxçıvanda həbsdə olan generalın Bakıya köçürülmək istəməsinin sirri

## Vəli Ələsgərovun köçürülmək istədiyi təcridxanada MTN-in ən odioz generalları saxlanılır, amma başqa bir səbəb də mümkündür...



Bu barədə "Trend"ə V.Ələsgərovun vəkili Vüqar Xasayev məlumat verib.

Vəkil bildirib ki, o, V.Ələsgərovun 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülməsi üçün aidiyyəti qurumlara müraciət edib: "Qanunvericiliyin tələblərinə görə, Vəli Ələsgərov Bakı İstintaq Təcridxanasına köçürülə bilər. Bunun üçün biz Ədliyyə Nazirliyinə, Naxçıvan Penitensiar Xidmətinə və digər aidiyyəti qurumlara müraciət etmişik. Lakin Naxçıvan Penitensiar Xidməti Vəli Ələsgərovun Bakıya köçürülməsini məqsədəuyğun hesab etməyib. Səbəb kimi göstəriblər ki, Vəli Ələsgərovun qohumları Naxçıvan Muxtar Respublikasında yaşayırlar".

Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun istefaya göndərilməsindən bir müddət sonra işdən çıxarılmış və daha sonra barəsində cinayət işi açılaraq ev dustağı edilmişdi. Vəli Ələsgərov həmin ərəfədə vəkili vasitəsilə sensasion məlumatlar açıqlamışdı. V.Ələsgərov Eldar Mahmudovun vəzifədə olarkən ona Vasif Talıbovu və ailə üzvlərini dinləmək barədə təklif verdiyini demişdi. "Vəli Ələsgərov isə bundan imtina edib. Deyib ki, ünvanı səhv salmısan, mən heç vaxt rəhbərimə xəyanət etmərəm. Mən belə qanunsuzluqla məşğul olmaram. İmtina edəndən sonra Eldar Mahmudov onun barəsində kontrmaterial yığmağa başlayıb. Guya Vəli Ələsgərov Bakıya vəzifəyə gəlmək istəyir. Bu səpkili dezinformasiyanı Vasif Talıbova ötürüb. Bundan sonra Vəli Ələsgərov həbs edilib" deyə, vəkili bildirmişdi.

Vəkil V.Ələsgərovun istintaq təcridxanasında işgəncələrə, qeyri-insani rəftara məruz qaldığını da açıqlamışdı. Yeri gəlmişkən, V.Ələsgərovun köçürülmək istədiyi təcridxanada generallar Subahir Qurbanov, Akif Çovdarov, Elçin Quliyev, polkovniklər - Akif Əliyev, Səlim Məmmədov, Vüsal Ələkbərov, Orxan Osmanov və digərləri saxlanılır. "Vəli Ələsgərov onlarla görüşməkmi istəyir və niyə" sualı da indilikdə maraq doğurur...

Azpolitika.az saytının iddiasına görə isə Vəli Ələsgərovun Naxçıvandan uzaqlaşmaq cəhdi, çox guman ki, həbsxanada ona qarşı sərt münasibətlə bağlıdır. Sabiq nazir Bakıya köçürülərsə burda müəyyən qədər rahatlıq tapa biləcəyini düşünür. Lakin şübhəsiz ki, Naxçıvan rəhbərliyi V.Ələsgərovun Bakıya köçürülməsinə imkan verməz. Sirr deyil ki, Vəli Ələsgərovun əlində çox ciddi kompromatlar və məlumatlar var - Bakıda maraqlı dairələr onları əldə etmək və istifadə etmək niyyətinə düşə bilərlər.

V.Ələsgərovun Naxçıvandan uzaqlaşmaq cəhdlərinin heç bir nəticə verməyəcəyini indidən əminliklə söyləmək olar. Bunu sabiq nazirin özü də bilməmiş deyil. Lakin görünür, düşdüyü ağır psixoloji mühitdən canını qurtarmaq üçün çarəsiz şəkildə hər vasitədən istifadə etməyə məcburdur.

Vəli Ələsgərov 15 il Naxçıvanın milli təhlükəsizlik naziri olub. Həbsindən bir neçə ay əvvəl general-leytenant rütbəsi verilib. V.Ələsgərovun nazirliyi dövründə Naxçıvan MTN öndə gedən repressiv orqan kimi ad çıxarıb, orada ictimai fəallar, jurnalistlərə qarşı zorakılıqlara yol verilib, şantaj olunub, Naxçıvan sakinlərinin bir neçəsi qurumdakı dəhşətli işgəncələrin sonucu olaraq dünyalarını dəyişiblər.

Qeyd edək ki, Naxçıvan Hərbi Məhkəməsinin hökmü ilə V.Ələsgərov 14 il müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəllənin 179.3.2-ci (Mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 309.1-ci (Vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham olunub.

**Hökmdən apelyasiya şikayəti verilsə də, Naxçıvan Ali Məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb.**

❑ ORXAN

# Deputat Mirzəcan Xəlilova daha bir borc ittihamı

## Usta Rizvan Şükürov: "O, bizim də 12800 manat borcumuzu vermir"

**Laçın rayon sakini Zülfüqar Əliyev adlı şəxsin Milli Məclisin deputatı, "Azərsutəchizattikinti" ASC-nin sədri Mirzəcan Xəlilovdan şikayəti "Yeni Müsavat"da dərc olunduqdan sonra redaksiyamıza daha bir usta briqadasının iki nümayəndəsi gələrək deputatdan şikayətləniblər. Rizvan Şükürov və Vasif Həsənov adlı şəxslər şikayətlərinin yuxarı instansiyalara çatması üçün "Yeni Müsavat"da dərc olunmasını xahiş ediblər.**




**Ağdam rayonundan olduğunu bildirən Rizvan Şükürovun dedikləri:** "Qəzetdə Mirzəcan Xəlilovdan şikayətin yazıldığını oxuduq və qərara gəldik ki, biz də redaksiyaya gəlib dərdimizi çatdıraq. Bəlkə müvafiq dövlət orqanlarının rəhbərləri bizə kömək etsinlər. Mənim rəhbərlik etdiyim 6 nəfərlik briqada Mirzəcan Xəlilovun Novxanıdakı villasının içərisində malyar, alçipan, "poduqa" işini işləyib. Adlarını da çəkə bilərəm- Qafur Həsənov, Vasif Həsənov, Vüqar Hüseynov, Şahmalı Səmədov, Fəxri Xanlarzadə. Mirzəcan müəllimin şəxsən özü ilə qiymət razılaşmamız olub. 2014-cü ilin iyun ayında işə başlamışıq. Bir il sonra işi yekunlaşdırıb təhvil vermişik. İş kvadratla ölçülüb hesabatı gedib, bəlli olub ki, 79 min 8 yüz 50 manat zəhmət haqqı edir. Mirzəcan Xəlilov həmin məbləğin 12800 manatını borclu qalıb. Bu günə qədər həmin borcu vermir. Neçə dəfə ofisə yanına getmişəm, pulu verməkdən imtina eləyib. İşi Mirzəcan müəllimlə mən danışdığım və briqadir olduğum üçün ustalar zəhmət haqlarını məndən tələb edirlər. Mirzəcan müəllim isə qalan pulu vermədiyi üçün ustalarla üz-göz olmuşam. Bu problemlə bağlı Milli Məclisin sədri Oqtay Əsədova, baş prokuror Zakir Qaralova rəsmi ərizə də yazmışam. Ancaq hələ ki nəticə yoxdur. Ölkə rəhbərliyindən artıq dərəcədə xahiş edirəm, deputat Mirzəcan Xəlilova bizə olan borcunu ödəməsi üçün təsir göstərilsin".

**Cəlilabad rayonundan olan Vasif Həsənov isə villada malyar işi üzrə usta işlədiyini bildirdi:** "Mirzəcan Xəlilovun verməli olduğu 12800 manatdan mənə də zəhmət haqqı olaraq müəyyən məbləğ çatmalıdır. Mən də xahiş edirəm borcumuzun verilməsinə köməklik göstərilsin. Bizim Mirzəcan müəllimlə heç bir qərəzimiz, düşmənçiliyimiz yoxdur. Zəhmət haqqımızdan artıq bir manatı da bizə lazım deyil. İşləmişik, pulumuzu axıradək versin".

Xatırladaq ki, ötən həftə redaksiyamıza müraciət edən Zülfüqar Əliyev adlı briqadir də 2013-cü ildə briqadiri olduğu 20 nəfərlik usta-fəhlə heyəti ilə Mirzəcan Xəlilovun Novxanıdakı villasında fasadın təbii daş örtüyü ilə üzlənməsi üçün işə başladıqlarını, 2014-cü ilin may ayına qədər işlərin 90 faizə yaxınının görüldüyünü, Mirzəcan Xəlilovun ona 55 min manat borcunu hələ də vermədiyini bildirmişdi. Z.Əliyev 2014-cü ilin mayında M.Xəlilovun onu yox etməklə hədələdiyini, eyni zamanda 2016-cı ilin mayında tutdurmaq üçün məhkəməyə də verdiyini demişdi.

**Deputat Mirzəcan Xəlilov isə dünən modern.az-a açıqlamasında bildirib ki, Zülfüqar Əliyevin onun haqqında dedikləri şər-böhtandır:** "Axı nəyə görə 2013-cü ildə görülmüş iş haqqında indi məsələ qaldırırlar? Adama deyərlər ki, sən bu 3 ili harada yatmışdın? İndi Mirzəcan Xəlilov deputat olub deyə, Zülfüqar Əliyev də şantaj, şər-böhtan yolu ilə pul almaq istəyir.

Mən 2013-cü ildə özümə ev tikdirəndə heç deputat da deyildim, sadə bir adam idim. Zülfüqar Əliyev elə o zaman gələrdi və nə problemi var idisə, üzbəüz oturub həll edərdik.

Artıq Zülfüqar Əliyevi Ağdam Rayon Məhkəməsinə vermişik. Ədliyyə Nazirliyinin Ekspertiza İdarəsi də gəlib evdə hansı işlərin görüldüyü ilə tanış olacaq. Həmin vaxt mənə şər-böhtan yağdıran Zülfüqar Əliyev də, digər fəhlə və ustalar da iştirak edəcək.

Qoy Zülfüqar göstərsin ki, mənim evimdə hansı işləri görüb. Zülfüqar Əliyev özü etiraf edir ki, məndən 160.000 manat pul alıb. Amma 160.000 manatdan sonra biz özümüz onun 20.000 manat borcunu bağlamışıq.

O, bu gün 160.000 manatı ortalığa qoysun. Bilək, görək ki, o qədər məbləğin qarşılığında hansı işləri görüb kimə və hara verib. Bizim heç bir usta və fəhləyə borcumuz qalmayıb, hamısını bağlamışıq. Zülfüqarın özü mənə 55.000 manat pul borcludur. Pullarımı yedi qaçdı, işləri də yarımçıq qoydu".

❑ Z.ƏZİZ

## Polis rəisinin 200 min manatını mənimsəyən qadının şikayətinə baxılır

**Bakı Apelyasiya Məhkəməsində sabiq polis rəisinə qarşı dələduzluq etməkdə təqsirləndirilən Aygün Babaşovanın apelyasiya şikayəti üzrə məhkəmə başlayıb.**

APA-nın məlumatına görə, ilkin baxış iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmənin baxış iclası oktyabrın 20-nə təyin edilib.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, Aygün Babaşova 11 il müddətinə azadlıqdan məhrum olunub. A. Babaşova 8 nəfərin etibarından sui-istifadə edərək ümumilikdə 450 min manat pulu dələduzluq yolu ilə əldə edib.

Zərərçəkənlərdən Məhəmməd Məhəmmədov Şəkidə 25 il Dövlət Yol Polisi Bölməsinin rəisi olub. Aygün Babaşova biznes qurmaq adı ilə ondan 200 min manat alıb.

A. Babaşova Cinayət Məcəlləsinin 178.3.2. (külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016



# Beynəlxalq qurumlar Azərbaycanın, həmsədrlər işğalçının yanında - nonsens?

## Qarabağ düyününü açmağa qoymayan əsas əngəl; **Azərbaycanın müdafiə nazirindən düşmənə müharibə xəbərdarlığı:** "Bu dəfə zərbə daha sarsıdıcı olacaq"; **rusiyalı analitik:** "Uzağı, bir aya danışıqlarda aktivlik olacaq..."

**Azərbaycan prezidenti İlham Əliyevin Qarabağla bağlı gündəmi dəyişən son sensasion açıqlaması - ölkəmizə bağlı qapılar arxasında təzyiqlərlə bağlı mesajı diqqəti yenidən ikili standartlar məsələsinə yönəldib. Bu açıqlama problemin ədalətli həlli üçün ən əvvəl ikili standart probleminin aradan qaldırılmasının nə dərəcədə vacib olduğunu bir daha ortaya qoyur. Çünki məhz aparıcı güclərin belə ikili standart yanaşması işğal rejiminin uzanmasına, işğalçının özünü cəzasız hiss etməsinə xidmət edən əsas amildir.**



Yaranmış durumda Azərbaycan üçün öz haqlı mövqeyini beynəlxalq instansiyalarda təbliğ eləməkdən və dost-müttəfiqlərinin sayını artırmaqdan, mövcud dost-müttəfiqlərlə əlaqələri daha da möhkəmlətməkdən savayı yol qalmır. Beynəlxalq səviyyədə sözümüzün keçərli olması üçün Azərbaycan bütün mənalarda güclənməlidir - hərbi, iqtisadi, demokratik cəhətcə. Niyə həm də "demokratik"? Ona görə ki, Qarabağ məsələsi həm də insan haqları məsələsi sayılır və demokratik dünyanın hərtərəfli dəstəyini qazanmaq üçün bu faktoru gözardı edə bilmərik.

*****

Nə yaxşı ki, mötəbər beynəlxalq qurumlar Azərbaycanın haqlı mövqeyinə biganə deyil. Onlardan biri də Avropa Şurası Parlament Assambleyasıdır (AŞ PA). Çox mühümdür ki, prezident İlham Əliyevin məlum açıqlamasından cəmi bir neçə gün sonra AŞ PA-dan Qarabağ məsələsində Azərbaycana dəstək gəlib. Belə ki, qurumun payız sessiyasının ilk iş günündə AŞ PA sədri Pedro Aqramunt deyib ki, "bütün münaqişələr dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir". Özü də bu fikri xüsusi vurğulayıb.

**Yada salaq ki, Ukraynadakı vəziyyətdən danışan AŞ PA sədri bütün üzv dövlətlərdəki münaqişələrinin həll edilməsinin vacibliyini vurğulayaraq deyib:** "Bütün münaqişələr dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir, bir daha xatırladıram, bütün münaqişələr... Dövlətlərin sərhədləri güclə deyil, yalnız ikitərəfli razılıq əsasında dəyişilə bilər. Ukraynada baş verən münaqişə, Krımın ilhaq olunması, eyni zamanda, Gürcüstan, Moldova və Azərbaycandakı münaqişə qəbuledilməzdir. Avropalı olaraq, biz yaşadığımız ümumi məkanımızda baş verən münaqişələri həll etməliyik və burada parlament diplomatiyası siyasi danışıqları ruhlandırmaq istiqamətində adekvat vasitədir".

Amma gerçək bundan ibarətdir ki, Dağlıq Qarabağ konfliktin də daxil, adı çəkilən münaqişələrin heç birini hələ ki yoluna qoymaq mümkün olmayıb. Bunun da aparıcı səbəbi, qeyd olunduğu kimi, həmsədr dövlətlərin ikili standart siyasətidir. Ən xoşagəlməz reallıq da elə budur ki, beynəlxalq təşkilatlar öz qərarları ilə Azərbaycanın yanında olduğu halda, həmsədrlər altdan-altdan işğalçıya himayədarlıq edir, işğalçının təəssübünü çəkirlər.

*****

**Qarabağ danışıqlarındakı növbəti durğunluq dövrünün səbəblərindən danışan rusiyalı tarixçi alim və analitik Oleq Kuznetsova görə, yaranmış durğunluğun bir səbəbi də son vaxtlar Azərbaycan və Ermənistanın öz daxili siyasi problemlərini həll etməyə girişməsi ilə bağlıdır:** "Yay ərzində hər iki ölkədə praktiki şəkildə paralel olaraq konstitusiya islahatları aparıldı. O səbəbdən Qarabağ ritorikası bu fonda bir qədər zəiflədi. Azərbaycanda və Ermənistanda daxili siyasi dəyişikliklər dönəmi başlayıb ki, bu da hər iki ölkədə xarici siyasət fəallığında müvəqqəti sakitlikdə özünü göstərir. Bunda təəccüblü və qeyri-təbii heç nə yoxdur. Sadəcə, dövlət siyasəti prioritetlərinin müvəqqəti dəyişməsi baş verib. Və mən əminəm də artıq əminəm ki, çox qısa zaman sonra - bir aydan çox olmayaraq, - hər şey köhnə axarına qayıdacaq, danışıqlarda aktivlik olacaq".

**Ekspert işğalçı Ermənistandakı son kadr dəyişikliklərinə də diqqət çəkərək, baş verənləri bu ölkədə "Qarabağ klanı"nın hakimiyyətinin zəifləməsi kimi xarakterizə edib:** "Bu prosesin qarantı qismində rusiyayönlü qüvvələrin təmsilçisi olaraq "Qazprom Mejregionqaz"ın meneceri, İrəvanın sabiq meri Karen Karapetyanın baş nazir gəlməsidir. Hətta müdafiə naziri postuna prezident administrasiyasının keçmiş rəhbəri, mülki şəxs Viqen Sərkisyanın gətirilməsi ilə silahlı qüvvələr prezident Serj Sərkisyanın birbaşa idarəçiliyi altına keçsə də, istisnasız olaraq Dağlıq Qarabağda qanunsuz erməni silahlı birləşmələrinin səhra komandirləri olmuş generallar daha ölkənin daxili siyasətinə təsir edə bilməyəcəklər. Odur ki, mənim fikrimcə, "Qarabağ klanı" bütünlüklə və qəti şəkildə öz mövqelərini əldən verib".

*****

Lakin düşmən ölkədə nə baş verir-versin, sözsüz ki, Azərbaycanın diqqətindədir və Qarabağ probleminin hərbi yolla həll variantı daim masa üstündə saxlanılır. Bunu Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Müdafiə Nazirliyi rəhbərliyinin cəbhə bölgəsində ön xətdə xidmət edən şəxsi heyətlə görüşü bir daha sübut edir.

**Musavat.com-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, müdafiə naziri, general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək bildirib:** "Azərbaycanın səylərinə baxmayaraq, Ermənistanın hərbi-siyasi rəhbərliyi münaqişənin həlli istiqamətində heç bir müsbət addım atmır. Düşmənin qeyri-konstruktiv mövqeyinə görə danışıqlarda irəliləyiş əldə olunmur, beynəlxalq hüquq pozulur. Ali Baş Komandanın qeyd etdiyi kimi, Ermənistan öz çirkin taktikasını işə salaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın, vaxt uzansın. Biz buna imkan verməməliyik və bu münaqişə tezliklə həllini tapmalıdır".

**Cəbhə xəttində düşmənin təxribatları davam etməsi və daima artmasına diqqət yönəldən müdafiə naziri daha sonra işğalçını xəbərdar edərək deyib:** "Ordumuz bu təxribatların qarşısını qətiyyətlə alır və daha sərt cavab tədbirləri həyata keçiriləcək. Ermənistanın nümayiş etdirdiyi raketlərin taktiki-texniki xüsusiyyətləri barədə tam məlumatımız var. Bu bölgədəki hərbi balansı düşmənin xeyrinə dəyişməyib. Biz bütün istiqamətlərdə tam üstünlüyə nail olmuşuq. Düşmən tərəfinin istifadə edə biləcəyi bir neçə qurğuya cavab olaraq isə Silahlı Qüvvələrimiz sərəncamındakı minlərlə raketlərdən, döyüş vasitələrindən cavab verməklə həmin raketləri vura bilməyə və düşmənin istənilən məsafədəki bütün hərbi infrastrukturunu məhv etməyə qadirdir. Ermənilərin həmin raketlərdən istifadə barədə səsləndirdiyi hədələr isə uydurmadan başqa bir şey deyil. Aprel döyüşləri qarşı tərəf üçün bir dərs olmalı idi. Lakin görünür, onlar bu zərbədən nəticə çıxarmayıblar. Düşmənin növbəti təxribatına veriləcək cavab daha dağıdıcı və sarsıdıcı olacaq, onu tam məhv edəcək".



## "Prezidentlər tezliklə bir araya gələcək" - Uorlik

**"ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə qarşıdakı görüşündə tərəflər daha əvvəl Vyana və Peterburqda qəbul edilən qərarları müzakirə edəcəklər". Bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik "Trend"ə deyib.**

Onun sözlərinə görə, həmsədrlər bu ay regiona səfər etməyi planlaşdırırlar: "Biz uzunmüddətli sülhün bərpa edilməsinin bütün mümkün yollarını müzakirə edəcəyik".

Diplomat daha sonra ümid etdiyini bildirib ki, Azərbaycan və Ermənistan rəhbərləri İlham Əliyev və Serj Sərkisyan yaxın zamanda görüş barədə razılığa gələcək və ikitərəfli dialoqu davam etdirəcəklər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi




# Cahangir Hacıyevin maliyyə nazirini hədəf almasının daha bir səbəbi-qısasçılıq...

## Ekspert: "Samir Şərifova qarşı ittihamları sənədlərlə sübut etməlidir"

**Həbsdə olan sabiq bankir Cahangir Hacıyev məhkəmədə son sözündə də hədəfində maliyyə naziri Samir Şərifov oldu. Belə ki, C. Hacıyev iddia etdi ki, Samir Şərifov təkcə "Azərinşaat"a ayrılan vəsaitdən 350 milyon mənimsəyib: "Buna cinayət deyilmir. Niyə? Bu işi araşdırmaq üçün niyə Bülənt Karanı gətirmədiniz? Ola bilsin ki, bu gün kimsə toxunulmazdır. Amma sabahı bilmək olmaz.**

Məhkəmədən xahiş etmirəm, tövsiyə edirəm ki, hamıya bəraət verilsin, iş geri qaytarılsın, müstəntiq və prokuror haqqında xüsusi qərar çıxarılsın. Əgər bunlarda zərrə qədər vicdan varsa, üzr istəsinlər. Nə qərar çıxaracaqsınızsa, o sizin işinizdir. Amma bu günün sabahı da var".

C. Hacıyev daha öncəki məhkəmə proseslərində də israrla Samir Şərifovun adını hallandıraraq, onun da istintaqa cəlb olunmalı olduğunu bildirirdi.

Maraqlısı budur ki, təkcə C. Hacıyev deyil, onun bacısı Əminə Hacıyeva da Samir Şərifova qarşı ittihamlar səsləndirib.

Bəs C.Hacıyevin Samir Şərifova qarşı ittihamları gerçəkliyi əks etdirirmi?

**Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov "Yeni Müsavat"a mövzu ilə bağlı bildirib ki, bu ittihamlar kənardan şəxsi məsələlərlə bağlı görünür:** "Cahangir Hacıyev məhkəmə prosesi əsnasında bir neçə dəfə Samir Şərifov haqqında mənfi fikirlər səsləndirib, ancaq ortaya hər hansı bir sənəd, fakt qoymayıb. Hətta deyib ki, guya onun təqdim etdiyi bəzi faktları məhkəmə qəbul etməyib. Cahangir Hacıyevə nə mane olur? Əgər onun əlində faktı varsa, heç olmasa bunu ictimaiyyətə ötürsün, mətbuatda yaysın. Doğrudanmı onun ittihamları əsaslıdır? Hesab edirəm ki, burada daha çox şəxsi motivlər ön plandadır. Hamımız bilirik ki, uzun illər idi




Samir Şərifov Beynəlxalq Bankın Müşahidə Şurasının sədri olsa da, banka təsir göstərə bilmirdi. Cahangir Hacıyev isə istədiyini edirdi. Cahangir Hacıyevin həbs olunmasından sonra Samir Şərifov nəhayət ki, səlahiyyətlərindən istifadə edərək, bankdakı özbaşınalıqlara son qoydu. Onun qanunsuz fəaliyyətini Samir Şərifov üzə çıxardı. Buna görə də məsələni şəxsi xarakterli hesab edirəm. Doğrudur, Beynəlxalq Bankdakı hadisələrə görə Samir Şərifovun da ən azı peşəkar və siyasi məsuliyyəti var. Lakin hesab edirəm ki, hüquqi məsuliyyətdən söhbət gedə bilməz. Çünki Samir Şərifov Beynəlxalq Bankın fəaliyyətinə qətiyyən müdaxilə edə bilmirdi".

**Ekspert bildirib ki, Beynəlxalq Bankın bütün kreditlərini Cahangir Hacıyev verib:** "Bu isə Samir Şərifovun icazəsi olmadan aparılıb. Necə ola bilər ki, "Cahangir Hacıyevin söylədiyi kimi, vəsait gedib Samir Şərifova çıxıb? Əgər belə fakt varsa, bunun da sənədlərini göstərib, sübut etsin. Bu, sadəcə olaraq ona bənzəyir ki, pis işin üstü açılır, bu işi görən adam da qarşı tərəf haqqında pis nələrsə söyləyir. Bəlkə doğrudan da əsas var. Ancaq varsa, bu, sözlə sübut oluna bilməz. Samir Şərifovun fəaliyyətində ola bilər ki, qüsurlar var. Ancaq bu, Beynəlxalq Bankla bağlı ola bilməz. Çünki orada qərarları bir nəfər qəbul edirdi, o da Cahangir Hacıyev olub. Eyni zamanda Samir Şərifovu Cahangir Hacıyevin bacısının da ittiham etməsi, məsələnin şəxsi olması qənaətinə gəlinməsinə şərait yaradır".

**Ekspert C. Hacıyevin Şərifova qarşı devalvasiya ilə bağlı səsləndirdiyi ittihamlara da münasibət bildirib:**

"Qəbul edirəm ki, devalvasiya haqqında qərarı Cahangir Hacıyevin söylədiyi kimi, Samir Şərifov verə bilər. Hətta bu qərarı o veribsə belə, hesab edirəm ki, bunu doğru edib. 2015-ci ilin fevral ayını xatırlayaq ki, açıqlanan məlumatlara görə, bəzən həmin günlərdə 500 milyona qədər dollar alınıb. Bunu isə aydın məsələdir ki, bankirlər alırdılar. Söhbət elə başda Cahangir Hacıyev və Mərkəzi Bankın sədri Elman Rüstəmovdan gedir. Bu şəxslərin bərbad fəaliyyəti nəticəsində banklar dolları alıb, milli valyutamızı sarsıdırdılar. Devalvasiyadan qaçmaq mümkün deyildi".

❑ **Əli RAİS**

# Dünya Enerji Konqresindən gözləntilər - udan və uduzan kimlər olacaq?

## Toplantı hazırda dünyada yeni başlayan sənaye erasında sənaye sektoru və cəmiyyətlər üçün tarixi bir fürsət kimi dəyərləndirilir

**Oktyabrın 10-da Türkiyənin İstanbul şəhərində 23-cü Dünya Enerji Konqresi işinə başlayıb. Oktyabrın 10-da konqresdə Azərbaycanın dövlət başçısı İlham Əliyev də geniş çıxış edib. Ekspertlər musavat.com-a bu toplantıdan gözləntilərlə bağlı ehtimallarını bölüşüblər.**

**Professor Elşad Məmmədov** bildirib ki, İstanbulda keçirilən 23-cü Enerji Konqresində əsas müzakirə mövzusu OPEC-ə daxil olan və qeyri-üzv ölkələrin beynəlxalq neft bazarının balanslaşdırılması istiqamətində səylərinin konsolidasiya edilməsi perspektivləridir: "Neft qiymətlərinin davamlı müddət ərzində aşağı səviyyədə olması aparıcı neft hasilatçıları ölkələrinin çətin iqtisadi duruma düşməsinə səbəb olub. Bu, ən çox iqtisadiyyatları kifayət qədər diversifikasiya edilməyən ölkələrə aiddir ki, onların tədiyyə balanslarında və digər makroiqtisadi göstəricilərində ciddi problemlər yaranıb. Bu baxımdan, əminliklə bildirmək olar ki, neft qiymətlərinin stabilləşməsi və artırılması bu ölkələrin iqtisadi maraqlarına uyğundur və həm OPEC-ə daxil olan, həm də təşkilata üzv olmayan hasilatçı ölkələrin əksəriyyəti hasilatın həcminin azaldılması və bazarda neft təklifinin tələbata nisbətən daha balanslaşdırılmış şəkildə formalaşdırılmasında maraqlıdırlar. Bu amil yaxın perspektivdə neft qiymətlərində artıma doğru müəyyən korreksiyaların olacağını proqnozlaşdırmağa əsas verir. Lakin fikrimcə, neft qiymətlərində gözlənilən artım kəskin olmayacaq. Neftin dünya bazarlarında qiymətinin hansı səviyyədə olması bir sıra mürəkkəb geosiyasi, iqtisadi, habelə texnoloji baxımdan innovativ amillərlə bağlıdır. Buna görə də bu sahədə qiymətlərin formalaşmasında hətta nəzəri baxımdan bütün hasilatçıların eyni mövqedən çıxış etməkdə maraqlı olması belə heç də həmişə həlledici rol oynamır".

**Ekspertin sözlərinə görə, yaxın illərdə dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə artmasına bir çox amillər mane olacaq. İlk sırada geosiyasi amillər gəlir:** "Qərb-Rusiya münasibətlərinin kəskinləşməsi prosesi dərinləşməkdədir. Bu baxımdan, neftin qiymətinin kəskin şəkil-




də artması Rusiyaya qarşı Qərbin həyata keçirdiyi sərt siyasətin effektivliyini heçə endirə bilər. Çünki reallıqda enerjidaşıyıcılarının qiymətlərinin endirilməsi vasitəsilə Rusiya iqtisadiyyatına ziyan vurmaqdan başqa, əslində Qərbin arsenalında əsaslı siyasi, hərbi və hətta iqtisadi mexanizm mövcud deyil. Buna görə də mən "neft kartından" Qərbin hələ xeyli müddət istifadə edəcəyini proqnozlaşdırıram".

**Onun sözlərinə görə, texnoloji və innovativ amillər də əsasdır:** "ABŞ-da şişt texnologiyaları əsasında həyata keçirilən neft hasilatı qiymətlərin formalaşmasında mühüm rol oynamağa başlayır. Qiymətlər 50-60 dollar arasında manevr etdiyi zaman, şişt buruqları artıq rentabelli olur, bu isə neft bazarında təklifin kəskin şəkildə artmasına səbəb olaraq, qiymət artımının müəyyən səviyyəyə çatdıqdan sonra dayandırılmasına xidmət edir. Neft hasilatçıları ölkələrinin makroiqtisadi durumunun oxşar cəhətləri ilə yanaşı, həmin milli iqtisadiyyatlarda struktur baxımından ciddi fərqlərin olmasına görə qiymətlərin dəyişməsinə bu ölkələrin həssaslığı müxtəlifdir. Misal üçün, iqtisadiyyatının diversifikasiyasına xeyli dərəcədə nail olmuş, ciddi sanksiyalar sınağından çıxmış İran iqtisadiyyatının Səudiyyə Ərəbistanı iqtisadiyyatına nisbətən hazırkı qiymətlərə adaptasiyası daha rahat keçir. Digər tərəfdən, bazarlara dayanıqlı şəkildə yenidən daxil olmağı planlaşdıran İran üçün hasilatın azaldılması çox aktual deyil".

**E.Məmmədov qeyd edib ki, dünya iqtisadiyyatında, o cümlədən aparıcı milli iqtisadiyyatlar olan ABŞ və Çin iqtisadiyyatlarında artım tempi hələ də zəifdir:** "Bunu söyləməyə bir sıra mütərəqqi iqtisadi diaqnostik məzmunlu təhlillər əsas verir. Bu baxımdan, dünya iqtisadiyyatında enerjidaşıyıcılarına tələbatın ciddi şəkildə artması gözlənilmir. Həmçinin yaxın aylarda ABŞ FES tərəfindən monetar siyasətin sərtləşdirilməsi gözlənilir. Bunun dünya miqyasında dolların möhkəmlənməsinə, inkişaf etməkdə olan milli iqtisadi sistemlərdə iqtisadi artım templərinin azalmasına səbəb olacağını proqnozlaşdırmaq olar. Bu proses eyni zamanda xammal resurslarının, o cümlədən neftin qiymətlərinin artmasına xidmət etməyəcək".

**E.Məmmədovun sözlərinə görə, İstanbul Konqresi ilə bağlı digər əlamətdar hadisə konqres meydançalarında Rusiya və Türkiyə dövlətləri arasında "Türk axını" layihəsinin reallaşdırılmasına dair hökumətlərarası sazişin imzalanması olub:** "Reallaşacağı halda, Avropanın qaz və ümumilikdə enerjidaşıyıcıları nəqli xəritəsində ciddi dəyişikliklərə səbəb olacaq bu layihə ilə bağlı razılığın əldə olunmasını hər iki ölkənin ciddi iqtisadi uğuru kimi qiymətləndirilmək olar. Uduzan tərəfin isə bu məsələdə əsasən ABŞ-ın təzyiqləri səbəbindən "Cənub axını" layihəsindən imtina edən bir sıra Avropa İttifaqı ölkələri və Ukraynanın olması görünür".

**İqtisadçı alim Fikrət Yusifov isə "Yeni üfüqlərə qucaq açmaq" devizi altında keçirilən Konqresi hazırda dünyada yeni başlayan sənaye erasında sənaye sektoru və cəmiyyətlər üçün tarixi bir fürsət kimi dəyərləndirib və orada səslənəcək fikirlərin, verilən mesajların dünyanın enerji təchizatının gələcək "yol xəritəsi"nin əsasını təşkil edəcəyini deyib:** "Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində əsas strateji tərəfdaşa çevrilməkdədir. Azərbaycan və qardaş Türkiyə arasında energetika sahəsində əməkdaşlıq özünün pik həddinə çatıb. Bu, regionda hər iki dövlətin mövqelərinin daha da möhkəmləndirilməsi deməkdir. Bu sahədə Azərbaycan və Türkiyənin Rusiya ilə bir araya gələ bilməsi isə enerji məsələlərinin həllində yeni regional bir güc mərkəzinin formalaşması perspektivlərindən xəbər verir. Burada söhbət yaxın gələcəkdə hər üç ölkənin maraqlarını təmin edən transmilli enerji layihələrinin icra edilməsindən gedir. Bütün bu proseslərdə isə getdikcə daha böyük təbii basqılara məruz qalacaq ölkə Ermənistan olacaq. Ermənilər bir məsələni anlamalıdırlar ki, bu gedişlə onlara olan bugünkü "sevgi" hər zaman daha üstün maraqlarla əvəzlənə bilər. Bunları düşünüb nəticə çıxarmaq hələ ki gec deyil".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

**Oktyabrın 11-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. MSK sədri Məzahir Pənahov iclasda bildirib ki, MSK sentyabrın 26-da keçirilmiş referendumla əlaqədar səsvermənin təşkili üçün üzərinə düşən vəzifəni yerinə yetirib. MSK sədri deyib ki, ən qərəzli müşahidəçilərin hesabatlarında da seçki prosesində hakimiyyət resurslarından istifadə olunması barədə ifadəyə rast gəlinmir. Bir vaxtlar irad kimi səslənən bu ifadə artıq yaddan çıxıb: "Azərbaycan seçki proseslərində ən inkişaf etmiş Avropa ölkələrinin heç birindən geri qalmır".**

# MSK referendumun yekun nəticələrini təsdiqlədi

## 3 seçki məntəqəsində nəticələr tam ləğv edilib; ölkə yeni konstitusiya ilə idarə olunmağa başlayır




İclasda məlumat verilib ki, MSK referendumla əlaqədar 3 seçki məntəqəsində seçkinin nəticələrini tam ləğv edib. 1 seçki məntəqəsində isə seçkinin nəticələri qismən ləğv edilib.

11 saylı Qaradağ Seçki Dairəsinin 14 saylı seçki məntəqəsi, 12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsinin 10 saylı seçki məntəqəsi, 68 saylı Cəlilabad kənd Seçki Dairəsi 2 saylı seçki məntəqəsində seçkinin nəticələri tam, 64 saylı saylı Sabirabad Seçki Dairəsinin 35 saylı seçki məntəqəsində isə seçkinin nəticələri qismən ləğv olunub.

MSK referenduma yekun vurulması və yekunların elan edilməsi barədə qərar qəbul edib.

Qərarda bildirilir ki, səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu referenduma çıxarılmış Referendum Aktı layihəsinin 29 hissəsinin hər birinin lehinə səs verdiyindən layihə qəbul edilmiş hesab edilməlidir. Sənəddə qeyd edilir ki, MSK-nın protokolu təsdiq edilərək referenduma yekun vurulsun, referendum baş tutmuş sayılaraq konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi haqqında Referendum Aktının layihəsi qəbul edilmiş hesab edilsin, referendumun yekunları elan edilərək Referendum yolu ilə qəbul edilmiş aktın mətni dərc edilsin. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Qeyd edək ki, referendum Aktı layihəsində Konstitusiyaya 29 maddəyə 39 əlavə və dəyişikliklər irəli sürülmüşdü.

Referendumun nəticələrinə görə, seçkidə iştirak edənlərin 92 faizi konstitusiyaya təklif edilən dəyişikliklərə "hə" deyib.

Referendumun nəticələri qüvvəyə mindikdən sonra ölkə prezidenti konstitusiyaya əsaslanaraq 1-ci vitse-prezident, vitse-prezidentlər təyin etməlidir. Hakimiyyət rəsmilərinin, iqtidara yaxın deputatların, bir sıra siyasətçilərin və ekspertlərin indiyə qədər verdiyi açıqlamalarda, proqnozlarda referendumun nəticələrinin qüvvəyə minməsindən sonra ölkədə ciddi dəyişikliklərin, islahatların həyata keçiriləcəyi vurğulanır. Qeyd edilir ki, Konstitusiyaya yeni dəyişikliklər idarəetmənin dəyişməsinə gətirib çıxaracaq. Konstitusiya dəyişikliyinə qədər Azərbaycan prezidenti vəzifəsini icra edə bilmədikdə onun səlahiyyətləri baş nazirə keçirdisə, dəyişiklikdən sonra birinci vitse-prezidentə keçir.

Konstitusiya dəyişiklikləri qüvvəyə mindikdən sonra bu ilin dekabr ayında prezident və növbədənkənar parlament seçkilərinin keçiriləcəyi iddia olunur.

Bu barədə hakimiyyətə yaxın bir sıra deputatların da açıqlamaları olub. Bildirilib ki, referendumun nəticələri təsdiq olunandan sonra Azərbaycanda prezident seçkilərinin keçirilməsi ehtimalı böyükdür. Bəzi siyasi partiya sədrləri isə növbədənkənar seçkilərin keçirilməsini konstitusiyaya edilən yeni dəyişikliklərin tələb etdiyini bildiriblər.

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov moderator.az-a bildirib ki, növbədənkənar seçkilər təyin etmək səlahiyyətləri konstitusiyada yeni dəyişikliklərə görə ölkə prezidentinə məxsusdur. Prezident əgər istəsə, növbədənkənar prezident seçkiləri çağıra bilər:** "İstəməsə, onsuz da cənab prezident xalq tərəfindən yekdilliklə seçilib və 2018-ci ilə qədər müddəti var. Proses 2018-ci ilə qədər davam edə bilər. Bu, prezidentin səlahiyyətində olan məsələdir və hesab edirəm ki, kiminsə buna müdaxilə etməsi, hansısa proqnoz verməsi doğru deyil".

❑ **Etibar SEYİDAĞA**



## 13-cü "zon"da nə baş verib?

**Beynəlxalq təşkilatların həbsini siyasi saydığı bir neçə məhbusun cəza çəkdiyi 13 saylı çəzaçəkmə müəssisəsinə xüsusi təyinatlılar yeridilib. Bu barədə gununsesi.info Penitensiar Xidmətdəki mənbəyə istinadən məlumat yayıb.**

Məlumata görə, 2 gün əvvəl müəssisəyə daxil olan xüsusi təyinatlılar məhbuslara qarşı fiziki zorakılığa əl atıblar. Məhbuslardan Füzuli rayon sakini Elvin Mahmudov və Cəlilabad rayon sakini Emin Əlizadə ağır bədən xəsarətləri alıb. Dəhşətli işgəncəyə məruz qalan hər iki məhkum müəssisədən çıxarılaraq, "Tubzon" *(Vərəmli Məhkumların Müalicə Müəssisəsi)* adlandırılan "işgəncə kolonu"na göndərilib. Qeyd edək ki, ölkənin bütün müəssisələrində "islah olunmayan" məhkumlar "Tubzona" göndərilir və orada amansız işgəncələrlə üzləşirlər. Məlumatda qeyd olunur ki, hər iki məhkum orada ac-susuz saxlanılır, gündə iki dəfə döyülür. Sayt əməkdaşı xəbəri dəqiqləşdirmək üçün Penitensiar Xidmətin mətbuat xidmətinin rəisi Mehman Sadıqovla əlaqə saxlayıb. O, müəssisəyə qoşun yeridilməsini təkzib etsə də adıçəkilən məhkumlarla bağlı məlumat verəcəyini deyib. Xatırladaq ki, 13 saylı cəzaçəkmə müəssisəsində vicdan məhbuslarından Əbdül Əbilov və İlkin Rüstəmzadə saxlanılır. Bir müddət əvvələ qədər sabiq səhiyyə naziri Əli İnsanov da bu müəssisədə saxlanılırdı. Lakin barəsində yeni cinayət işinin açılması ilə əlaqədar Ə.İnsanov Bakı İstintaq Təcridxanasına köçürülüb. Bu səbəbdən müəssisədə baş verən olay zamanı orada olmayıb. 13 saylı cəzaçəkmə müəssisəsi yerləşməsi və kommunal şəraitinə görə ölkənin ən pis cəzaçəkmə müəssisələrindən biri hesab edilir. Qışda qaz və elektrik problemi, yayda isə müəssisəsinin ətrafında yerləşən daş karxanalarından qalxan toz-tozanaq, susuzluq məhkumların elə belə də yüngül olmayan həyatlarını bir qədər də ağırlaşdırır. Çəzaçəkmə müəssisəsindəki qurğular hamısı sovetlərdən qalıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# ABŞ-ın Azərbaycandakı səfirlərinin "alma-armud oyunları"

## Sekutanın son fotoları gündəm olub; ölkəmizdə fəaliyyət göstərən ABŞ səfirləri məhşər ayağına çəkilir; **Mübariz Əhmədoğlu:** "Səfirləri qınamaq düzgün deyil"

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın Qubadan yayılan fotoları sosial şəbəkələrin əsas müzakirə mövzularından birinə çevrilib. Sekuta Quba xalçası və alma-armudlarla şəkillər çəkdirib.**




Xalçanın toxuma hissələrini diqqətlə seyr edən, əlində Quba alması ilə poza verən diplomat qısa zamanda sosial şəbəkələrin qəhrəmanına çevrilib. Sekutanın bu fotoları ilə bağlı fikirlər birmənalı deyil. O, həm ələ salınır, həm tərifələnir, həm də tənqid olunur. Əksəriyyət səfiri daha ciddi işlərlə məşğul olmadığına görə qınayır. Əsas önə sürülən arqumentlər isə Dağlıq Qarabağ və digər ciddi problemlər olan ölkədə səfir kimi çalışan bir şəxsin bu cür fotolarla gündəmi zəbt etməsidir.

Sekutanın gündəm olması Amerikanın ölkəmizə səfir təyin etdiyi şəxslərin fəaliyyətini müzakirə obyektinə çevirib. 2003-2006-cı illərdə Azərbaycanda səfir işləmiş Rino Harnişdən sonra ABŞ-ın ölkəmizə təyin etdiyi nümayəndələrinin ciddi işlərlə məşğul olmaması, daha çox əyləncə xarakterli fəaliyyətlərə önəm verdikləri vurğulanır. Harnişdən sonra ardıcıllıqla Azərbaycanda səfir olan xanım Enn Dörsi, Metyu Brayza, Riçard Morninqstar və son olaraq R.Sekutanın daha çox belə fəaliyyətlərlə gündəmə gəldikləri qınanır. Səfirlər daha çox müxalifətçilər tərəfindən sərt tənqidlərə məruz qalırlar. Səbəb olaraq da onların demokratiya və insan haqları məsələlərində susqun mövqe sərgiləməsidir.

Qeyd edək ki, son 10 ildə ABŞ səfirləri adətən Novruz bayramı ərəfəsində gündəm olurdular. Onları da gündəm edən yandırılan tonqalın üstündən tullanması, Kosa-Keçəllə yumurta döyüşdürməsi idi.

**Politoloq Mübariz Əhmədoğlu Sekutanın bu şəkildə gündəmə gəlməsini doğru hesab etmir:** "Sekuta bununla ABŞ Dövlət Departamentinə və Amerika cəmiyyətinə göstərmək istəyir ki, Azərbaycan cəmiyyətinin içərisinə bu qədər girmişəm. Səfir hər iki ölkənin cəmiyyətlərinə onu da göstərmək istəyir ki, Azərbaycan və Amerikada əhalinin inkişaf səviyyəsi eynidir. Burada başqa səbəblər axtarmaq lazım deyil. Səfir barədə fikir bildirən şəxslər onun gördüyü işlərdən məlumatlı deyillər. Sadəcə, bizim sosial şəbəkə son vaxtlar daha çox narazı qismində çıxış edir. Sosial şəbəkələrə xarici ölkələrin təsiri o qədər güclüdür ki, Amerikanın daim qara sifətdə görünməsinə cəhdlər olunur. Bir faktı deyim ki, Roma papası Gürcüstan və Ermənistana səfərlər etdi. Həmin ölkələrin prezidentlərinin ailələri ilə tanış olmadı. Amma Azərbaycana səfərində prezidentin evində oldu. Bununla xristian dünyasına göstərdi ki, görün bu ailə, Azərbaycan cəmiyyəti necə xristian dünyasına bağlıdır. Bununla belə, sosial şəbəkələrdə Papanın səfəri ilə bağlı ağıza gələni yazdılar. ABŞ səfirlərinin Dağlıq Qarabağ problemi ilə məşğul olmamasının tənqid edilməsi düzgün deyil. Çünki bu məsələ onların məşğul olduqları iş deyil. Onlar Qarabağ münaqişəsinin anatomiyasını qəşəng bilirlər. Sadəcə, səfir ABŞ Dövlət Departamentinin işçisidir. Oradan nə göstəriş gəlirsə, onu da yerinə yetirir. Səfirlərin göndərdikləri hesabatlar Departamentdə qalır. Bu baxımdan, Amerikanın Dağlıq Qarabağ problemində ölkəmizə qarşı olan mövqelərini müəyyən edən səfirlər deyil. Səfirləri qınamaq düzgün deyil. Bütün dünya praktikasında bu hal mövcuddur ki, kimisə harasa səfir göndərəndə həmin şəxsin o xalqa simpatiyasının olmasını nəzərə alırlar. Barak Obama və ondan əvvəlki ABŞ prezidentləri xalqımıza simpatiyası olan səfirlər göndəriblər. ABŞ Dövlət Departamenti səfirlərlə elə məşğul olur ki, onlar Qarabağ məsələsi ilə bağlı fəaliyyət göstərə bilmirlər. Səfirin fəaliyyətinə hərtərəfli yanaşmaq lazımdır. Qərəzli şəkildə səfirə hücum etmək doğru deyil. Amma onu da qeyd edim ki, Azərbaycan dövlətinin və cəmiyyətinin Amerika ilə bağlı fikirləri başa düşüləndir. El arasında bir məsəl var, "Uman yerdən küsərlər". ABŞ-ın 1993-cü ildə burada maraqlarını təmin etmək üçün itkilər vermişik, bir növ Amerikanı bu regiona gətirən bizik. Bundan ötrü başımıza yumruq dəyib. Münasibətlər əvvəlki qaydada olmalıdır. Erməni nə verib sizə ki, daha çox onların maraqlarından çıxış edirsiniz?"

❑ **Cavanşir ABBASLI**

# 670 bal toplayan tələbə kəsirə görə intihar etdi

**Bakıda dəhşətli hadisə baş verib. 4-cü kurs tələbəsi özünü yaşadığı binanın 11-ci mərtəbəsindən aşağı ataraq, intihar edib. Hadisə oktyabrın 10-da gecə Nizami rayonu, Azər Manafov küçəsi 1A ünvanında yerləşən Azərbaycan Dövlət Neft Şirkətinin, təlim, tədris və sertifikatlaşdırma idarəsinin gənc mütəxəssislər yataqxanasının binasında qeydə alınıb.**

Musavat.com saytı xəbər verir ki, orada qalan, Bakı Ali Neft Məktəbinin 4-cü kurs tələbəsi Maarif Hüseyn oğlu Abbasov özünü 14 mərtəbəli yataqxananın 11-ci mərtəbəsindən, daha dəqiq desək, həmin mərtəbədə yerləşən otağın eyvanından ataraq intihar edib.

Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil. Amma ilkin ehtimallar var. İddialara görə, gəncin intihar etməsinə səbəb imtahandan kəsilməsi olub. 4 imtahandan keçə bilməməsi onu həddindən artıq narahat edib. Bunu özünə dərd edib, bu səbəbdən də psixoloji gərginlik yaşayıb. Tələbə yoldaşlarının lent.az-a verdiyi məlumata görə, H.Abbasovun doğrudan da kəsirləri olub. Lakin bu kəsirlər onun yaxşı oxumaması səbəbindən deyil, imtahanlarda ümumiyyətlə iştirak etməməsindən yaranıb.

Tələbə yoldaşları bildiriblər ki, bir müddət imiş H.Abbasovun ailəsində problemlər yaranıbmış və bu problemlər onun təhsilinə də mənfi təsir göstərib. Lakin onlar problemin konkret nədən ibarət olmasını dəqiq bilmədiklərini deyiblər. Mərhumun tələbə dostları həmçinin əlavə ediblər ki, 22 yaşlı Hüseyn hadisədən az əvvəl bərbərə gedib saçlarını kəsdirib.

Hüseyn Abbasovun intiharından bir neçə saat əvvələ qədər internetdən istifadə etdiyi də məlum olub. Hüseyn son olaraq zarafatla "Merhabalar, ben Hüseyn, 20 yaşındayım, Azerbaycanda yaşıyorum, heç evlənmədim, 18-20 yaş arası taliplerimi bəkliyorum, təşəkkürlər" statusunu yazıb.

Mərhum tələbənin atası Hüseyn Abbasov istintaqa verdiyi ifadədə də bunu deyib: "Oğlum məktəbdə əlaçı olub və təhsilə çox məsuliyyətlə yanaşıb. Maarif ali məktəbə 670 balla daxil olub. Maarif 6 imtahanın 4-dən kəsilmişdi. Buna görə də yaman narahat idi. Başqa problemi olmayıb".






Hazırda Nizami Rayon Prokurorluğu özünəqəsd faktını araşdırır.

❑ **Məhəmməd TÜRKMƏN**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmad
həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə
və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya
email(kioskum.az@gmail.com)yazmağınız kifayətdir.

**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**

***Telefon: (012) 434-93-01***


## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01; 070-888-91-50**




## Maşallah Əhmədovun məhkəməsi qapalı olacaq

**Oktyabrın 11-də dələduzluqda təqsirləndirilən tanınmış futbolçu Maşallah Əhmədovun cinayət işi üzrə keçirilməli olan məhkəmə prosesi təxirə salınıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilməli olan proses Maşallah Əhmədovun vəkilinin iştirak etməməsi səbəbindən təxirə salınıb.**

Məhkəmə zalına jurnalistlər buraxılmayıb. Hakim bildirib ki, tərəflərin razılığı var ki, prosesdə jurnalistlər iştirak etməsinlər. Növbəti proseslərin də qapalı keçiriləcəyi gözlənilir.

Qeyd edək ki, M.Əhmədov 2015-ci ilin dekabr ayının 14-də Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Rəsmi məlumata görə, biznesle məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib.

M.Əhmədovun sözünə əməl etmədiyi və həmin şəxslərin pulunu qaytarmadığı deyilir.

Dekabrın 16-da Binəqədi Rayon Məhkəməsində M.Əhmədov barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Qərardan narazı qalan veteran futbolçu apelyasiya şikayəti ilə Bakı Apelyasiya Məhkəməsinə müraciət edib. Lakin apelyasiya şikayəti təmin edilməyib. Dekabrın 30-da isə Binəqədi Rayon Məhkəməsi M.Əhmədov barəsində seçilmiş həbs-qətimkan tədbirini ləğv edib. Tanınmış futbolçu ev dustaqlığına buraxılıb. Bu ilin avqust ayında isə M.Əhmədovun işi üzrə ibtidai istintaq yekunlaşaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Amma prokurorluq cinayət işinin ibtidai istintaqa qaytarılması barədə qərar çıxarıb. İş yenidən ibtidai istintaqda araşdırılıb. Məlumat üçün bildirək ki, Əhmədov Azərbaycan futbolunun ən güclü hücumçularından olub. O, 1977-ci ildən "Neftçi" klubunda oynayıb. M.Əhmədov 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.

❑ **İlkin MURADOV**

## Masazırda ər arvadını dəmir parçası ilə öldürdü

**Abşeron rayonunda qətl hadisəsi baş verib. APA-nın məlumatına görə, qanlı hadisə Masazır qəsəbəsində qeydə alınıb. Muxtarova Lalə Arif qızı həyat yoldaşı tərəfindən dəmir parçası ilə döyülərək öldürülüb. Ağdam rayonundan məcburi köçkün olan Lalə Muxtarova ikinci dəfə ailə qurub. Birinci ailəsi dağılan qadın əmisi oğluna ərə gedib. Bu nikahdan iki aylıq körpələri var.**

Sadiq Muxtarov arvadını öldürdükdən sonra bıçaqla özünə də xəsarət yetirib. Yaralı Akademik Mirqasımov adına Respublika Kliniki Xəstəxanasına yerləşdirilib. Xəstəxanadan APA-ya verilən məlumata görə, 26 yaşlı kişiyə tibbi yardım göstərilib, daha sonra Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

## Sabirabadda məktəblilər qəzaya düşdü: ölən və yaralananlar var

**Sabirabadda yük avtomobili avtobusla toqquşub. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə səhər saatlarında Hacıqabul-Bəhrəmtəpə magistralında, Sabirabad rayonunun Bulaqlı kəndi ərazisində qeydə alınıb. Qəza nəticəsində 2005-ci il təvəllüdlü Həsənov Vüsal Elman oğlu həlak olub.**

Xəsarət alanlar 2005-ci il təvəllüdlü Həsənov Rəşad Elman oğlu, 2000-ci il təvəllüdlü Həziyeva Şəmsiyyə Qənimət qızı, 2007-ci il təvəllüdlü Ağayev Ağamirzə Mehman oğlu, 2004-cü il təvəllüdlü Əliyev Vüsal Murad oğlu, 1980-ci il təvəllüdlü Şirməmmədova Aybəniz Bəxtiyar qızı, 1999-cu il təvəllüdlü Həziyev İlham Rəhman oğlu, 2002-ci il təvəllüdlü Mirzəyev Rəhman Əziz oğlu, 1964-cü il təvəllüdlü Balakişiyev Vahid Bəxtiyar oğlu, 2005-ci il təvəllüdlü Mehdiyev Rüfət Samir oğludur. Onlardan üç nəfərə ambulator yardım göstərilib, əksəriyyətinin vəziyyətinin ağır olduğu bildirilir.

## Elan

**Duniyeva Ülkər Əliislam qızına məxsus 90 VK 815 dövlət nömrə nişanlı avtomobilin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının II kurs tələbəsi Məmmədova Günay Mustafa qızının adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 225 (6546) 12 oktyabr 2016

**Bakı bazarlarında mal və qoyun əti bahalaşıb. Bir neçə gündür ki, market və qəssabxanalarda ətin 1-1.5 manat bahalaşması ilə bağlı xəbərlər yayılır. "Yeni Müsavat" qəzetinin müxbiri ətin nə qədər və hansı səbəbdən bahalaşdığını öyrənmək üçün bazarlarda araşdırma aparıb.**

# Bakıda mal və qoyun əti kəskin bahalaşdı

## Ekspertin sözlərinə görə, Azərbaycana mal-qaranın gətirildiyi ölkələrdə də bahalaşma var



Qeyd edək ki, hazırda qəssabxanalarda mal ətinin kiloqramı 9 manata, 9 manat 50 qəpiyə, sümüksüz mal əti isə 11 manat 50 qəpiyə satılır. Qoyun ətinin kiloqramı isə 10 manat 50 qəpikdir.

Nizami rayonundakı "Rahat" marketdə ətin kiloqramı sümüklü-sümüksüz olmasına, heyvanın hansı hissəsinə aid olmasına görə, 8.50 manatla 12 manat arasında dəyişir. Qoyun ətinin kiloqramı isə 10.45 qəpikdir.

Marketin yaxınlığında yerləşən qəssabxanalarda isə mal ətinin kiloqramı 9 manat 50 qəpiyə, qoyun ətinin kiloqramı 10 manat 50 qəpiyədir. Sümüksüz ət 11 manat 50 qəpik təşkil edir.

**Satıcılarla ətin bahalaşmasının səbəbləri haqqında danışarkən məlum oldu ki, son zamanlar Gürcüstandan, Dağıstandan ölkəyə iri və xırda buynuzlu mal-qara idxalı dayandırılıb:** "Bunun səbəbləri bəlli olmasa da, daxili bazarda ciddi heyvan qıtlığı yaranıb. Əvvəllər bazarda heyvan dolu olardı. İndi bazar sanki ölüb. Gürcüstandan gələn mallar Azərbaycan bazarını canlandırırdı. İndi mal-qara gətirilmir. Yerli istehsal isə daxili tələbatı ödəmədiyindən ətin qiyməti qalxıb. Səbəblərdən biri də heyvan yemlərinin qiymətinin artmasıdır. Heyvanı saxlayan yemi o qədər baha alır ki, xərci borcunu ödəmir".

**Satıcılar həmçinin bu durumun alıcılığa ciddi təsir etdiyini vurğuladılar:** "Bizim qazancımız da kəskin azalıb. İnsanlar elə bilməsin ki, əti baha satıb daha çox qazanırıq. Əvvəl əti ucuz alıb, daha çox satırdıq və gəlirimiz də çox olurdu. İndi baha alırıq və üzərinə daha az gəlir faizi qoyuruq ki, insanları qorxutmayaq. Əvvəllər bir dəfəyə 4-5 kiloqram ət alanlar indi bir kiloqram, yarım kiloqram ət alır. Tələbat azalsa da qiymətlərin düşməsi gözlənilmir. Çünki həm mövsümi amillər, həm də qıtlıq bahalaşmada əsas rol oynayır".

**Məsələyə münasibət bildirən iqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, ətin bahalaşması gözlənilən idi:** "Mən bununla bağlı aylar öncədən proqnoz vermişdim ki, bu son bahalaşma deyil, növbəti aylarda yenidən bahalaşma olacaq. Səbəb odur ki, iribuynuzlu mal-qaranı ölkəyə diri formada gətirirdilər. Hazırda mal-qara idxalında ciddi şəkildə azalma var. Bu da bazarda təklifin azalmasına gətirib çıxarıb. İdxalın azalması isə ixracatçı ölkələrdəki vəziyyətlə bağlıdır. Orada qiymətin artması Azərbaycana heyvan idxal edənlərin bu işdən imtina etməsinə səbəb olub, qiymət baha olduğundan onlar artıq əvvəlki kimi qazana bilmirlər. Rusiyada və Gürcüstanda qiymətlərin artması, həmçinin idxala tətbiq olunan gömrük rüsumlarının artması, rəsmi ödənişlərin əvvəlki qeyri-rəsmi ödənişlərdən daha çox olması, bu səbəbdən gəlirlərin azalması son nəticədə ət və ət məhsullarının bahalaşmasına gətirib çıxartdı. Düzdür, bu yeganə amil deyil. Ancaq ən böyük amil ondan ibarətdir ki, ixracatçı ölkələrdə mal-qaranın bahalaşma prosesi gedir. O baxımdan bahalaşma gözlənilən idi.

Daxili bazarda da qiymət artımı var. Xüsusən bir sahədə baş verən artım digər sahələrə də tətbiq olunur. Məsələn, növbəti aydan yeni gömrük rüsumları tətbiq olunacaq, quş ətinin hər kiloqramına 1 dollar əlavə rüsum tələb olunacaq. Quş əti 5 manata qədər bahalaşsa, heç kim mal ətini gətirib 8 manata satmayacaq. Yəni quş əti bazarındakı bahalaşma mal əti bazarının bahalaşmasına təsir göstərir. Mal əti bazarındakı qiymət artımı isə qoyun ətinin bahalaşmasına səbəb olur. Bazarda bu ət növləri arasındakı qiymət fərqi hər zaman qorunub. Mal əti quş ətindən, qoyun əti isə mal ətindən baha olmalıdır. Bu səbəbdən birinin bahalaşması digərini də bahalaşdırır.

Bu baxımdan, həm mövsümi amillər, həm gömrük rüsumlarının artması, həm idxalın azalması sonda buna gətirib çıxartdı. Bu il ölkə daxilində ən az bahalaşmaya məruz qalan məhsul ət idi. Ucuz mal və qoyun əti kifayət qədər tələbat yaratmışdı, bunun əksinə olaraq ölkədə kifayət qədər istehsal yox idi. Bir də yeni bir dalğa yaranıb ki, heyvandarlıq təsərrüfatlarını ləğv edirlər, onun yerində pambıqçılıq, tütünçülük təsərrüfatları yaradırlar. Mənim fikrimcə, bu da prosesə təsir edəcək və bahalaşma bundan sonra da olacaq.

Yemin bahalaşması da qiymət artımına gətirib çıxarır. Yay aylarında yaşıl yem olduğu üçün samanın, otun qiyməti ucuz olur. Mövsümi amillərin təsiri ilə yemin qiyməti də artır. Qüvvətli yemlər, silos ümumiyyətlə bahadır. Ot payız aylarında yaya nisbətən daha baha olur. Yem bazarında qiymət artımları qışa doğru da davam edəcək. Bu səbəbdən ətin bundan sonrakı dövrdə də bahalaşması gözləniləndir. Yaxın dövrlər üçün mal ətinin qiyməti 10-12 manata qalxa bilər. Gözləntilər var ki, qoyun əti də qış aylarına doğru 15 manata qədər arta bilər".

❑ **Nərgiz LİFTİYEVA**

# İcbari tibbi sığortanın tətbiqinə əngəl olan amillər...



**"2017-ci ilin yanvar ayında Mingəçevir və Yevlax şəhərində icbari tibbi sığortanın pilot tətbiqinə başlanılacaq". Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin monitorinq, təhlil və İT şöbəsinin müdiri İsa Əliyev azvision.az-ın suallarını cavablandırarkən deyib. Azərbaycanda 16 ilə yaxındır ki, icbari tibbi sığortanın bazası yaradılsa da, təəssüflər olsun ki, bu, tətbiq olunmur. Dünyanın demək olar ki, bütün ölkələrində icbari tibbi sığorta mövcuddur. Azərbaycanda isə bu, hələ də mövcud deyil.**



**Adil Qeybulla:** "Çek-up müayinəni, ilkin yardımları, təcili əməliyyatları sığorta paketinə daxil etmək mümkündür"

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** bunun həyata keçməməsinə bir neçə amilin səbəb olduğunu dedi: "Əslində bu, genefondun qorunması istiqamətində olan bir proqramdır. İcbari tibb sığorta ilə bağlı 1999-cu ildə prezident fərmanı olsa da, indiyədək həyata keçirilməyib. Buna bir neçə amil mane olur; əhalinin maaşlarının yetərincə olmaması, Azərbaycan əhalisinin böyük hissəsinin miqrasiya durumunda olması, Qarabağ problemi, daxili problemlər və s. Bu gün insanlar icbari tibbi sığortalarının olmamasından əziyyət çəkirlər. Hər bir vətəndaş sığorta vəsiqəsi ilə təmin olunmalı və bu, ilk növbədə təxirəsalınmaz yardımı əhatə etməlidir. Çek-up müayinəni, ilkin yardımlari, təcili əməliyyatları sığorta paketinə daxil etmək mümkündür. Əhalinin gəlirləri çoxaldıqca, iqtisadiyyatda artım olduqca, dövlət büdcəsindən ayırmalar artdıqca tibbi xidmətin səviyyəsini və xidmətlərin sayını da artırmaq mümkün olar".

**İqtisadçı ekspert Rəşad Həsənov isə bildirdi ki, icbari tibbi sığorta ilə bağlı qaranlıq qalan məsələlər çoxdur:** "2016-cı ilin dövlət büdcəsi hazırlanarkən icbari tibbi sığorta ilə bağlı cəmiyyətə mesajlar verilmişdi və bu istiqamətdə 2016-cı ildə işlərin tamamlanacağı deyilmişdi. Amma hələ də bu işlər yekunlaşmayıb. 2016-cı ildə bu sahədə yalnız təhlillərin aparılması mümkün olub. Hazırda ölkənin səhiyyə sisteminin maliyyələşmə mexanizmləri ilə bağlı problemlər var. Buradakı mürəkkəb məsələlərdən biri odur ki, ölkənin səhiyyə sistemi, faktiki olaraq dövlət sektoru ödənişsiz fəaliyyət göstərir. Dövlət büdcəsindən səhiyyə müəssisələrinin fəaliyyətinin təmin olunması üçün vəsait ayrılıb. Bu müəssisələr ödənişsiz xidmət göstərirlərsə, icbari tibbi sığorta ödənişləri hansı formada icra oluna bilər? Əhalinin aztəminatlı və konkret olaraq müəyyənləşdirilmiş sosial qrupları üzrə icbari tibbi sığortanın dövlət vəsaitləri hesabına ödənilməsi təmin olunacaq. Yəni qaranlıq qalan məsələlərdən biri budur ki, insanlar bu xidmətlərdən necə ödənişsiz istifadə etsin. Dünya ölkələrində sığorta fondları vəsaitlərinin daha səmərəli və qənaətlə istifadə edilməsi məqsədilə daha keyfiyyətli və dayanıqlı xidmət göstərən tibb müəssisələrinin xidmətlərindən istifadə etməyi məsləhət görür. Bunun nəticəsində tibb müəssisələri arasında rəqabət mühiti dərinləşdi ki, bu da ölkələr üzrə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətlərini müsbətə doğru dəyişdi. Azərbaycanda dövlət səhiyyə sektorunda rəqabət mühiti kifayət qədər məhduddur. Bu baxımdan, düşünürəm ki, hazırkı planlaşmada nəzərdə tutulduğu kimi icbari sığortanın yalnız qeydiyyatda olan səhiyyə mərkəzlərində ilkin tətbiqi mürəkkəb olacaq. Mühüm məqamlardan biri də vətəndaşların hazırkı situasiyanın dəyişilməsinə inamının az olmasıdır. Belə ki, sığortası olan vətəndaşlar belə dövlət sektorunda hansısa bir tibbi xidmətdən istifadə etdikdən sonra ödəniş etməlidirmi? Axı bu sahədə fəaliyyət göstərənlərin əmək haqları kifayət qədər aşağıdır. Sizcə, bu əmək haqqı qarşılığında həkimlər, tibb bacıları vətəndaşa keyfiyyətli xidmət göstərəcəkmi?

Bundan başqa, xəstənin bir tibb müəssisəsindən digərinə köçürülməsi zamanı tibbi sığortadan necə istifadə ediləcək, ödəniş müəssisələr arasında necə əlaqələndiriləcək kimi sualların cavabı da qaranlıqdır. Digər mühüm bir məsələ isə əmək fəaliyyəti ilə bağlıdır. Çox zaman insanlar əmək müqaviləsi olmadan fəaliyyət göstərirlər ki, bu da icbari tibbi sığortanın qarşısında olan əngəllərdən biridir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 225 (6546) 12 oktyabr 2016



# Kloundan qorxan qadın vaxtından əvvəl doğdu

**Böyük Britaniyanın Lesterşir qraflığında kloun kostyumunda olan bir adam hamilə qadını qorxudaraq onun vaxtından əvvəl körpəsini dünyaya gətirməsinə səbəb olub. Bu barədə xəbər "Spotted Whitwick" adlı təşkilatın facebook səhifəsində yer alıb. Xəbərə görə, yolda gedərkən kolların arasından 17 yaşında bir kloun hoppanıb. Hamiləliyinin 8-ci ayında olan qadın həmin vaxt gəzintiyə çıxıbmış. Kloun qiyafəli gəncin onu qorxutması ucbatından qadında vaxtından əvvəl doğuş sancıları başlayıb. Lenta.ru xəbər verir ki, naməlum kloun geyimləri barədə narahatlıq dolu xəbərlər bu ilin avqustunda yayımlanmışdı. Dünyanın müxtəlif ölkələri və şəhərlərində kloun geyimli insanların balaca uşaqları qorxudaraq meşəyə aparmaları, onlara pul verərək şirnikləndirmələri də yayılan xəbərlər arasında idi. Bunun uşaqların uydurması olduğu barədə deyilənlər də öz əksini tapmayıb. Çünki həmin klounları böyüklər də görmüşdü.**

Amerikanın Corciya, Alabama və Virciniya ştatlarında isə bu günə qədər bu sayaq zarafatlara görə 12 nəfər həbs olunub. Onlar gizləndikləri küncdən qəfil çıxıb, insanları qorxudur və bundan səbəbi bilinməyən zövq alırdılar. Bundan başqa, Pensilvaniya ştatındakı 16 yaşlı Kristiana Torresin ölümünü də "kloun panikası" ilə əlaqələndirirlər.

# Dalğıc meşə yanğınında ölüb

**Kaliforniya Yanğınsöndürmə İdarəsi yanğından sonra meşədə yanmış bir dalğıc cəsədi tapıb. Üstəlik, bu cəsəd dalğıc paltarı, dalğıc üzgəci, dalğıc maskası və dalğıc balonu ilə "tam təchizatlı" bir dalğıc cəsədi idi. Əlbəttə ki, belə bir cəsədin meşə yanğınında tapılması çox təəccüblü idi. Ancaq polis hadisəni araşdırdıqdan sonra bütün sirlər ortaya çıxdı.**



Əslində hadisə belə baş verib. Dalğıc o gün meşədən 20 km uzaq olan dənizə girmişdi. Meşədə yanğın baş verəndə yanğınsöndürən vertolyotları su götürmək üçün o dənizə getmişdilər. Və su çənlərini dənizə salaraq, oradan yanğını söndürmək üçün su çəkmişdilər. Bu vertolyotlardan biri körfəzdən su çəkərkən dalğıcı da su ilə birlikdə "çəkmişdi". Sonra da yanğın yerinə apararaq, orada *(üstəlik, neçə metr yüksəklikdən)* yanğının içinə atmışdı. Nəticədə dalğıc yanaraq ölmüşdü.

# Hər yeddi saniyədən bir... 15 yaşdan kiçik qız evləndirilir



**"Save the Children" humanitar təşkilatının yeni hesabatına görə, hər yeddi saniyədə yaşı 15-dən az olan bir qız evlənir. Araşdırmaya görə, Əfqanıstan, Yəmən, Hindistan və Somali kimi ölkələrdə 10 yaşlı qızlar daha yaşlı kişilərlə evlənməyə məcbur edilir. BBC-nin xəbərinə görə, "Save the Children" bildirir ki, erkən nikahlar qızın həyatında bir sıra problemlərə səbəb ola bilər. Münaqişə, yoxsulluq və humanitar böhranlar qızların uşaq yaşlarında evlənməsində əsas rol oynayır.**

"Uşaq evliliyi qızları təhsil almaq, inkişaf etmək və uşaqlıqlarını yaşamaq kimi əsas haqlarından məhrum edir", "Save the Children" qrupunun icraçı direktoru Helle Thorning-Schmidt deyib.

"Erkən evlənən qızlar adətən məktəbə gedə bilmir və böyük ehtimalla məişət zorakılığı, təhqir və təcavüzlə üzləşirlər. Onlar hamilə qalır və cinsi yolla keçən xəstəliklərə qarşı həssas olurlar".

Hesabatda qızlar üçün ən çətin ölkələr sırasında Çad, Nigeriya, Mərkəzi Afrika Respublikası, Mali və Somali kimi ölkələr yer alıb. Hesabatda deyilir ki, münaqişələrdən əziyyət çəkən qızların uşaq ikən gəlin olma ehtimalı böyükdür. Qeyd olunur ki, bir çox qaçqın ailələri qızlarını yoxsulluq və cinsi istismardan qorumaq üçün erkən evləndirirlər.

"Save the Children"in hesabatı çərşənbə axşamı qeyd olunan Beynəlxalq Qız Gününə təsadüf edir.




**QOÇ** - Bu günün xarakterinə uyğun olaraq, daha çox istirahətinizi, qeyri-işgüzar görüşlərinizi, səfərlərinizi təmin etməlisiniz. Saat 17-dən sonra xoş bir hadisənin şahidi olacaqsınız.

**BUĞA** - Qapalılığı bir kənara atın, insanlarla açıq şəkildə, səmimiyyətlə davranın. Yalnız bu halda qarşınızda duran günün bəhrəsini görəcəksiniz. Axşam saatlarında özünüzü soyuqdəymədən qoruyun.

**ƏKİZLƏR** - Sizdən tələb olunan vəzifələri layiqincə həyata keçirməyi bacarsanız, həm nüfuzunuz artacaq, həm də mövcud problemlərinizin həlli sürətlənəcək. Elə saat 11-dən bu istiqamətdə hərəkətə keçin.

**XƏRÇƏNG** - Səhər saatlarından başlayaraq nüfuz dairəniz genişlənəcək. Hətta yuxarı dairələrlə əlaqələriniz də dərinləşə bilər. Bununla yanaşı, ailə-sevgi münasibətlərinə də ciddi yanaşın, xətrə dəyməyin.

**ŞİR** - Siyasi-iqtisadi sahədə bürcünüz üçün gərginlik var. Bu səbəbdən hər hansı addımı atmazdan əvvəl kəşfiyyat xarakterli manevrlər edin. Çalışın ki, sizə inam bəsləyənlərin sayı artsın. Məsuliyyətsiz danışmayın.

**QIZ** - Qətiyyət göstərin, haqqınızı tələb etməyi bacarın. Belə olarsa, Göy qübbəsi digər işlərdə sizə yardımçı olacaq. Təkəbbürlü insanlarla iş görməyin. Günün ikinci yarısında maraqlı görüşlər var.

**TƏRƏZİ** - Bütün proseslər xeyrinizə cərəyan edəcək. Yalnız saat 14-16 aralığı bir qədər mürəkkəb ola bilər. Həmin saatlarda münaqişədən uzaq durmalı, vaxtınızı qapalı yerdə keçirməlisiniz. Spirtli içkidən uzaq olun.

**ƏQRƏB** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ruhunuzu sıxan bir çox məsələlərə aydınlıq gələcək. Gün ərzində arzuladığınız adamların əksəriyyətini görəcəksiniz. Təmir-tikinti işləri də effektli ola bilər.

**OXATAN** - İxtiyarınızda olan bu təqvim karyeranıza ucalıq vəd edir. Amma bu, heç də aldığınız təkliflərə gözüyumulu razılıq verməyinizi tövsiyə etmir. Çünki çətin adamlarla baş-başa qala bilərsiniz.

**OĞLAQ** - Yeni əlaqələrə başlamaq üçün konkret addımlar atmağa dəyər. Amma hansısa məsələyə görə ciddi məbləğdə xərc çəkməyə lüzum yoxdur. Rəhbərliklə münasibətləri mülayimləşdirin. Yalan danışmayın.

**SUTÖKƏN** - Gözlənilməz təsadüf nəticəsində mövcud problemləriniz aradan qalxmağa başlayacaq. Bu yöndə ümid bəslədiyiniz insanların köməyini də görəcəksiniz. Gün boyu daxili inamınızı bərpa edin.

**BALIQLAR** - Rastlaşdığınız hər bir olaya yaradıcı eşqlə yanaşın. Bu halda fəaliyyətiniz və maddi durumunuz da qənaətbəxş olacaq. Ulduzlar başqalarının əşyasından istifadə etməyi və borc götürməyi məsləhət görmür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 155 kiloluq manekeni 48.5 min nəfər bəyəndi



Dünyanın ən kök manekeni olan Tess Holidey alt paltarında çəkdirdiyi selfilərini yayıb. Qadının fotolarını 1.3 milyon insan izləyir. "Siz hesab edirsiz ki, mənim işim bitib və siz istədiyiniz zaman sözlərinizlə mənə hücum edə bilərsiz?" 31 yaşlı amerikan qadın şəklinin altına bu sözləri yazıb. "Daily Mail"in xəbərinə görə, bununla da o, ağır çəkisinə rəğmən manekenlik etdiyi üçün onu tənqid edənlərə cavab verib. Qadın hazırda 155 kilo ağırlığındadır. Manekenin selfisi 48.5 min bəyənmə (layk) toplayıb. Mayda facebook ona öz yarıçılpaq şəkillərini yayımlamağı qadağan etmişdi. Bu, sosial şəbəkənin estetik kriteriyalarının pozulmasına görə atılmış addım idi. Amma buna qarşı ciddi etirazlar başladı. Hətta feministlər hərəkatı da bununla bağlı müvafiq aksiya başlamışdı.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750